DİQQƏT!

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 148 (6112) 28 avqust 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Sevginizə, etimadınıza, hörmətinizə, diqqət və səmimiyyətinizə görə təşəkkür edirəm!"



Birinci vitse-prezident Mehriban Əliyeva doğum günü ilə bağlı ünvanlanan təbriklərə görə təşəkkür edib. Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində edilən paylaşımda deyilir: "Nə qədər saf, təsiredici sözlər, gözəl, xoş arzular! Bu qədər ürəkdən ifadə edilmiş hisslər! Ad günü təbriklərinə görə hamıya minnətdaram! Sevginizə, etimadınıza, hörmətinizə, diqqət və səmimiyyətinizə görə təşəkkür edirəm! Qəlbləri hərarətləndirən duyğu...

Bax 3

## "Rossiya-24" və "Rossiya-1" telekanallarında Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb



Bax 2

## Hulusi Akar: "Azərbaycan türkü doğma qardaşımızdır, təbii ki, biz eyni tərəfdəyik"



Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın Azərbaycan torpaqlarına təxribatı ilə bağlı suala "Azərbaycan türkləri doğma qardaşlarımızdır. Buna görə biz iki dövlət bir millətik. Təbii ki, biz burada tərəfik. Biz təcavüzkar mövqeyi həqiqətən qınayırıq. Bu hücumların müdafiə olunacaq heç bir tərəfi...

Bax 3

## Prezidentin köməkçisi şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərlə görüşüb



*Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev avqustun 27-də şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən 74 QHT-nin rəhbəri ilə onlayn görüş keçirib. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi...*

Bax 2

## Hikmət Babaoğlu: "Səs" qəzetində tətbiq edilən yeni metod çox mühüm hadisədir



Bax 5

"Çap mediası hazırkı innovativ texnologiyaların verdiyi bütün imkanlardan istifadə etməklə öz ömrünü uzada bilər. Yaxud yeni keyfiyyət mərhələsinə qədəm qoya bilər. Ona görə də, hazırda milli mətbuatımız bu istiqamətdə müəyyən axtarışlar etməkdədir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan"...

## Avetik İsxanyan: "Ermənistan hakimiyyəti itaətkar bir məhkəmə sistemi qurur"

*Konstitusiya Məhkəməsi ətrafında baş verən hadisələr, nəticədə, Ermənistanda konstitusiya böhranına səbəb oldu və hazırki hakimiyyətə sədaqətsiz üzvlərdən "qurtulma" müddətinin qanuniliyini şübhə altına aldı. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Yerevanda yaşayan hüquq müdafiəçisi Avetik İsxanyan tert.am saytına...*



Bax 9

## Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib



Bax 4

## Əli Kərimli, Nigar Həzi və cəbhəçi trollar məhkəməyə təzyiq göstərirlər



Bax 14

## "Mançester Siti" Messi üçün 200 milyon avro təklif edir!



Bax 16

# “Rossiya-24” və “Rossiya-1” telekanallarında Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb

***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Anatoli Torkunovun 70 illik yubileyi münasibətilə Rusiyanın “Rossiya-24” və “Rossiya-1” televiziya kanallarında verilişlər yayımlanıb. Həmin verilişlərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan dövlət başçılarının, ictimai-siyasi xadimlərin, diplomatların nüfuzlu təhsil müəssisəsinin rektoru ilə bağlı müsahibələri göstərilib. Bu verilişlərdə Azərbaycan Respublikasının Prezidenti, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu İlham Əliyevin də müsahibəsi yayımlanıb.***

SİA müsahibəni təqdim edir.

Prezident İlham Əliyev: O, MDBMİ-yə bizim ali məktəbin həyatının ən çətin dövrlərindən birində, qondarma yenidənqurmadan sonra başçılıq edib və onun rəhbərliyi ilə MDBMİ qısa müddətdə öz prestijini bərpa edib, dünyanın aparıcı ali məktəblərindən birinə çevrilib. Mən



bilirəm ki, Anatoli Vasilyeviç bizim hamımızın MDBMİ məzunları olmağımıza görə fəxr edə bilməyimiz üçün çox qüvvə, sağlamlıq və diqqət sərf edib. Fikrimcə, MDBMİ-nin hər bir məzunu Anatoli Vasilyeviçin bizim ali məktəb üçün görmüş olduğu və bu gün də gördüyü işlərə görə ona minnətdar olmalıdır.

Məzunların Birinci Forumunu keçirdiyimiz vaxt mən demişdim ki, bu forumun Azərbaycanda keçirilməsi yəqin ki, təbiidir. Həm ölkənin adının, həm də soyadımın əlifba sırasına görə belə olmalı idi. Lakin mən onu da dedim ki, yəqin bu, həm də ona görədir ki, hələlik mən MDBMİ-nin yeganə prezident məzunuyam və arzu etdim ki, belə məzunlar çox olsun. Şadam ki, bu, belə də olur. Biz artıq iki nəfərik. Əminəm ki, bu, hələ başlanğıcdır. Biz çox olacağıq, ona görə ki, əminəm, bizim almamaterin məzunları, necə deyərlər, Anatoli Vasilyeviçin yetirmələri mənsub olduqları ölkələrin həyatında layiqli yer tutacaqlar, çünki MDBMİ praktiki olaraq bütün dünyanı birləşdirir. Əminəm ki, gələcəkdə MDBMİ-nin məzunları olan prezidentlərin sayı daha çox olacaq. Anatoli Vasilyeviçi bir daha ürəkdən təbrik edirəm, ona ən xoş arzularımı bildirirəm. Sükanı belə saxlayın!

# Prezidentin köməkçisi şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərlə görüşüb

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev avqustun 27-də şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən 74 QHT-nin rəhbəri ilə onlayn görüş keçirib.***

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Şuranın sədri Azay Quliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi QHT-lərə dövlət dəstəyi konsepsiyasında şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lərə dövlət dəstəyi xüsusi prioritet təşkil edir. Şura fəaliyyəti dövründə bu kateqoriyadan olan təşkilatların layihələrinə davamlı olaraq maliyyə ayırıb və onların bu sahədə olan təşəbbüslərini daim dəstəkləyib: “Bu gün Prezidentin köməkçisi Hikmət Hacıyevin bu istiqamətdə çalışan QHT-lərlə ayrıca görüşü dövlətin bu sahəyə nə qədər böyük əhəmiyyət verdiyini bir daha sübut edir”.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev əvvəlcə ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda canını fəda edən bütün şəhidlərimizi yad edib və onlara Allahdan rəhmət diləyib. Hikmət Hacıyev şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərin qayğılarının hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu və bu istiqamətdə çox böyük işlər görüldüyünü bildirib. Prezident İlham Əliyevin doğum günlərini şəhid ailələri ilə keçirdiyini deyən Hikmət Hacıyev bunun Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan şəxslərin ruhuna və onların ailə üzvlərinə göstərilən yüksək ehtiramın nümunəsi olduğunu qeyd edərək deyib: “Cənab İlham Əliyev 2018-ci ildə yenidən Prezident seçildikdən sonra ilk Fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olub. Bu şəhidlərə verilən yüksək qiymət idi. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. 8018 şəhid ailəsi və müharibədə əlil olmuş şəxs mənzillərlə təmin edilib, onlara 6900 avtomobil verilib. Dövlət cari ildə 1500 şəhid ailəsi və müharibədə əlil olmuş şəxsi mənzillərlə təmin edib və ediləcək. Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə isə





onu vurğulamaq istəyirəm ki, bu il ümumilikdə 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək”.

Hikmət Hacıyev bildirib ki, Böyük Vətən müharibəsi və Əfqanıstan müharibəsi veteranlarının mənzil və avtomobillərlə təmin edilməsi, sanatoriyalara göndərilməsi, onların müalicə olunması və s. kimi məsələlər də daim ölkə başçısının diqqət mərkəzindədir.

Prezidentin köməkçisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qeyd olunan kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində böyük işlər gördüyünü vurğulayıb. Aprel döyüşləri şəhidlərinin ailələrinə, həmin döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin, Tovuz döyüşlərində şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları da Mehriban Əliyevanın tapşırığına əsasən Fondun nəzarətinə götürülüb.

Hikmət Hacıyev şəhid ailələrinin, Qarabağ qazilərinin, müharibə veteranlarının, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin hər zaman milli maraqlarımızı qətiyyətlə müdafiə etdiklərini və cənab Prezidentin həyata keçirdiyi siyasəti daim dəstəklədiklərini bildirərək onlara göstərdikləri dövlətçilik mövqeyinə görə təşəkkür edib.

Prezidentin köməkçisi bugünkü görüşün xüsusi əhəmiyyətinə toxunaraq QHT rəhbərlərinin fəaliyyət göstərdiyi istiqamətlər üzrə fikir və təklifləri ilə yaxından tanış olmaq istədiyini bildirib.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov, “Ehtiyatda Olan Zabitlərin Konfederasiyası” İctimai Birliyinin sədri Məmmədhüseyn Sarıyev, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, “Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri Emin Həsənli, “Qarabağ Azadlıq Təşkilatı” İctimai Birliyinin sədri Akif Nağı, Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyinin sədri Əziz Ələkbərov, “Zəfər” şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə, “Vətənpərvərliyin Təbliğinə Dəstək” İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı, Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli, Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri Rey Kərimoğlu, “Əsgər Ailələrinə Dəstək” İctimai Birliyinin sədri Mətanət Cəfərova, “Azərbaycan Gözdən Əlillər Cəmiyyəti” İctimai Birliyinin sədri Səmyar Abdullayev, Azərbaycan Çernobil Əlillər İttifaqının sədri Mirhəsən Həsənov, Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, “Xankəndi” məcburi köçkünlərə dəstək İctimai Birliyinin sədri Xatirə Vəliyeva, Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədirov, “Dünya Azərbaycanlılarının Vətənpərvərlər” İctimai Birliyinin sədri Nəsimi Həsənov, “Qürur” şəhid ailələri xeyriyyə İctimai Birliyinin sədri Naibə Behbudova, “Müharibə Veteranı Qadınlarına Sosial Yardım” İctimai Birliyinin sədri Radə Abbas, “20 Yanvar” İctimai Birliyinin sədri Sultan Əzimzadə, “İstedadlı Əlillər” İctimai Birliyi sədri Cavad Qasımov, “20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin olunması” İctimai Birliyinin sədri Maral Zamanova, “Şəhid Ailələrinə Sosial Dəstək” İctimai Birliyinin sədri Almaz Zeynalova, Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı, Azərbaycan Vətən Müharibəsi Əlilləri Birliyinin sədri Firudin Məmmədov, “Vətən Fədailərinin Hüquqlarının Müdafiəsi” İctimai Birliyinin sədri Dadaş Quliyev və “Veteran Tankçılar” İctimai Birliyinin sədri Hacıbala Əzimov çıxış edərək onlara göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahə ilə bağlı fikir və təkliflərini səsləndirərək Hikmət Hacıyevin iştirakı ilə keçirilən QHT-hökumət dialoqunu yüksək qiymətləndiriblər.

Tədbirə yekun vuran Prezidentin köməkçisi Hikmət Hacıyev görüşdə fəal iştirak edən və müxtəlif təkliflər səsləndirən QHT rəhbərlərinə təşəkkür edərək bildirib ki, onların fikir və təklifləri diqqətlə araşdırılacaq və imkan daxilində nəzərə alınacaq. Bununla yanaşı, Prezidentin köməkçisi onu da xüsusi olaraq vurğuladı ki, şəhid ailələri, Qarabağ qaziləri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlərlə işləyən QHT-lər ölkəmizin milli maraqlarının qorunmasında, vətəndaş həmrəyliyinin və hərbi vətənpərvərliyin gücləndirilməsində, cəmiyyətin ümummilli maraqlar ətrafında birləşməsində, ölkəmizə qarşı yönələn təhdid və təxribatların qarşısının alınmasında və Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə effektiv şəkildə çatdırılmasında daha fəal olmalı və bu işdə bütün potensiallarını səfərbər etməlidirlər.

Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

## "Sevginizə, etimadınıza, hörmətinizə, diqqət və səmimiyyətinizə görə təşəkkür edirəm!"



Birinci vitse-prezident Mehriban Əliyeva doğum günü ilə bağlı ünvanlanan təbriklərə görə təşəkkür edib. Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində edilən paylaşımda deyilir: "Nə qədər saf, təsiredici sözlər, gözəl, xoş arzular! Bu qədər ürəkdən ifadə edilmiş hisslər! Ad günü təbriklərinə görə hamıya minnətdaram! Sevginizə, etimadınıza, hörmətinizə, diqqət və səmimiyyətinizə görə təşəkkür edirəm! Qəlbləri hərarətləndirən duyğu və sözlərinizə görə çox sağ olun! Sizin hər birinizə və doğmalarınıza möhkəm cansağlığı, xoş əhval-ruhiyyə, tükənməz sevgi və xoşbəxtlik arzulayıram!"

## Rumıniya mətbuatı Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr yayıb

Rumıniyanın aparıcı mətbuat orqanları, o cümlədən "AmosNews" xəbər agentliyi, "Ultima Ora" (Son saat) qəzeti, "News24hours" onlayn nəşri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr yayıb.




"Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazılarda qeyd olunur ki, müasir müstəqil Azərbaycanın inkişafına xidmət etmək, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, yardıma möhtac olanların dadına yetmək Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Vurğulanır ki, Mehriban Əliyeva Prezident İlham Əliyevlə çiyin-çiyinə Azərbaycanın dinamik inkişafına böyük töhfə verir.

Yazılarda Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi səmərəli fəaliyyətindən, beynəlxalq humanitar təşkilatlar olan UNESCO və ICESCO-nun xoşməramlı səfiri olaraq dünya mədəni irsinin qorunması, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi misilsiz töhfələrdən bəhs edilir. Vurğulanır ki, Birinci vitse-prezident sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə xüsusi diqqət göstərir.

Məqalələrdə, həmçinin Birinci vitse-prezidentin rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərindən, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən bəhs olunur. Bundan başqa, Mehriban Əliyevanın çoxşaxəli və xoşməramlı fəaliyyətinin həm Azərbaycanda, həm də dünya miqyasında yüksək qiymətləndirildiyi, onun bir çox beynəlxalq mükafatlara layiq görüldüyü vurğulanır.

## Ermənistanda əsgərin müalicəyə göndərilməsi üçün ailəsindən rüşvət istəyirlər



Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrinin birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgər oynaqlarında problem olmasına və çətinliklə yeriməsinə baxmayaraq müalicəyə göndərilmir.

Xezerxeber.az erməni KİV-lərinə istinadla xəbər verir ki, hərbi qulluqçu Hrant Minasyanın oynaqlarında kəskin ağrılar olduğundan yeriməkdə çətinlik çəkir. Hərbi hissənin həkimi bildirib ki, oynaqlarındakı patologiya səbəbindən H.Minasyan hərəkət etdikcə onun "sümükləri yeyilir". Bu da onun ayaqlarında funksional pozuntuya səbəb olur.

Ermənistan ordusunun hərbi qulluqçusu təcili əməliyyat edilməli olsa da, hərbi hissə komandanlığı onun müalicəyə göndərilməsini gecikdirir. Mənbənin iddiasına görə, H.Minasyanın valideynlərindən rüşvət tələb olunub. Onların isə həmin məbləği ödəməyə gücləri çatmadığından əsgərin hospitala göndərilməsi biləreкdən gecikdirilir.

## Avropa İttifaqının "EU Politics" portalında Birinci vitse-prezident Mehriban Əliyeva barədə məqalə dərc olunub

Avropa İttifaqının "EU Politics" portalında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə dərc olunub. Portal "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsinə istinadla Mehriban Əliyevanın Azərbaycanın inkişafı istiqamətində mühüm işlər görməsindən, humanist, xeyirxah təşəbbüslər irəli sürməsindən, onun rəhbərliyi ilə çoxsaylı layihələrin reallaşdırılmasından bəhs edir. Vurğulanır ki, amalı xeyirxahlıq və kömək etmək olan birinci xanımın çoxşaxəli fəaliyyəti cəmiyyətin həyatında müsbət dəyişikliklərin baş verməsinə yönəlib.




Azərbaycan tarixini, mədəni irsini, həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində yorulmaz fəaliyyət göstərən Mehriban Əliyevanın fəaliyyətində, eyni zamanda, sivil dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini xüsusi qeyd etmək olar. Onun yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycanın nüfuzlu tədbirlərə uğurla ev sahibliyi etməsi ölkənin reallıqlarının təbliği baxımından əhəmiyyət kəsb edir.

Yazıda Mehriban Əliyevanın Birinci vitse-prezident kimi gördüyü işlərdən də bəhs olunur, onun bu vəzifədə fəaliyyətinin ilk tədbirlərini yenə də humanist missiyaya köklədiyi vurğulanır. Birinci vitse-prezidentin çoxşaxəli və xoşməramlı fəaliyyətinin həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirildiyi diqqətə çatdırılır.

## Hulusi Akar: "Azərbaycan türkü doğma qardaşımızdır, təbii ki, biz eyni tərəfdəyik"



Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın Azərbaycan torpaqlarına təxribatı ilə bağlı suala "Azərbaycan türkləri doğma qardaşlarımızdır. Buna görə biz iki dövlət bir millətik. Təbii ki, biz burada tərəfik. Durduğu yerdə belə bir təcavüzkar mövqeyi həqiqətən qınayırıq. Bu hücumların müdafiə olunacaq heç bir tərəfi olmadığını da hər kəsin görməsini istəyirik. Görülən işin müdafiə ediləsi tərəfi yoxdur. Hər kəs bilməlidir ki, burada müxtəlif təlimlərlə qardaşlarımızla birlikdəyik", - deyə bildirib.

Ermənistanı məntiq və ağılla iş görməməkdə günahlandıran Akar, "Ermənistan məntiqlə və ağılla düşünərək iş görmür. Arxasındakı güclərdən güc alaraq başından böyük işlərə girişir", - dedi. Tarixə nəzər saldıqda 1915-ci il hadisələri ilə bağlı irəli sürülən iddiaların nə qədər səhv olduğunun Amerika arxivlərində kəşfiyyat məmurlarının hesabatlarında da qeyd edildiyini vurğulayan Akar "Bizimlə əlaqəsi olmayan bir ingilis, amerikalı yazır bunu. Getdik hər yeri gəzdik deyir. Məlum olub ki, türk kəndləri yandırılıb, erməni kəndləri isə olduğu kimi qalıb. Hesabatlar Amerika arxivindədir", - deyib.

## Azərbaycanın Xarici İşlər naziri Yunanıstan səfiri ilə görüşüb



Avqustun 27-də Xarici İşlər naziri Ceyhun Bayramov Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqosun etimadnaməsini qəbul edib. Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsindən xezerxeber.az-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Yunanıstan arasında mövcud əməkdaşlıq münasibətlərinə dair fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov səfir Nikolaos Piperiqosu təyinatı münasibətilə təbrik edərək, onun iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə inandığını bildirib.

Öz növbəsində Nikolaos Piperiqos ölkəmizə səfir təyin olunmasından məmnun olduğunu qeyd edib. O, Yunanıstan Xarici İşlər nazirinin təbriklərini nazir Ceyhun Bayramovun diqqətinə çatdırıb və diplomatik fəaliyyəti dövründə iki ölkə arasındakı əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Görüşdə habelə iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dövlət başçısından məmurlara növbəti xəbərdarlıq!

*İlham Əliyev: “Bəzi hallarda bəzi xırda səviyyəli məmurlar özlərini elə aparırlar ki, sanki bütün dünya bunlara borcludur”*

***“Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda sözdə yox, əməldə aparılır. Bu mübarizə xalq tərəfindən yüksək qiymətləndirilir. Mən vətəndaşlardan minlərlə məktub alıram. Onlar mənim bu addımlarımı alqışlayır və eyni zamanda, bəzi məsələlərə diqqətimi çəkir. Şadam ki, son vaxtlar ictimai nəzarət mexanizmi daha da mütəşəkkil forma alır. Mən bunu alqışlayıram”. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Faiq Qürbətovu Biləsuvar Rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda çıxışı zamanı deyib.***



Videoformatda baş tutan qəbulda dövlət başçısı hər zaman olduğu kimi, gənc kadrlara məsləhət və tövsiyələrini, ciddi tapşırıqlarını verməklə yanaşı, xəbərdarlığını da edib: “Əgər yeni təyin olunan icra başçıları Prezidentin verdiyi tapşırıqları icra edə bilməsələr, cəzalanacaqlar. Ona görə də icra başçıları onlara göstərilən etimadı öz işləri ilə doğrultmalıdırlar. Siz də öz işinizdə insanlara arxalanmalısınız və rayonlarda ictimai nəzarət mexanizmi təkmil olmalıdır. O, sizə də öz işinizdə kömək göstərəcək. Sizin diqqətinizdə olmayan bəzi məsələlər ictimaiyyət tərəfindən sizin diqqətinizə çatdırılacaq və beləliklə, bu məsələlər öz həllini tapacaq”-deyən dövlət başçısı bildirib ki, Azərbaycanda bu məsələlərlə dözümlülük sıfır dərəcəsindədir: “Korrupsiya və rüşvətxorluq halları bütün ölkələrdə var. Əsas məsələ odur ki, dövlət və hökumət bu məsələlərə hansı prizmadan yanaşır. Azərbaycanda bu məsələlərə dözümlülük sıfır səviyyəsindədir və hesab edirəm ki, gördüyümüz işlər bunu təsdiqləyir. Təkcə yerli icra orqanlarının rəhbərləri yox, eyni zamanda, mərkəzi icra orqanlarının rəhbərləri də məsuliyyətə cəlb edilibdir və bu məsələlər ictimailəşdirilir”.

### Vətəndaşı narahat edən problemlər həll edilməlidir

Prezident yeni təyin olunmuş məmurlara rəhbərlik edəcəkləri rayonlarda bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmalı olduqlarını, korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökünün kəsilməsi üçün ciddi çalışmalarının vacibliyini vurğuladı: “İlk növbədə, rayonlarda vəziyyət düzgün təhlil edilməlidir, mövcud olan nöqsanlar, çatışmazlıqlar araşdırılmalıdır. İnsanları narahat edən problemlər öz həllini tapmalıdır. Əgər hansısa problem rayon səviyyəsində öz həllini tapa bilmirsə, mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti nazirliklərə müraciət etməlisiniz. Siz öz işinizdə həmişə insanlarla bir yerdə olmalısınız. İnsanlar sizin qayğınızı hiss etməlidirlər. Bütün kəndləri bir-bir gəzib, vətəndaşlarla görüşüb, mövcud problemləri onların dilindən eşitməli və problemləri həll etməlisiniz. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər ölkəmizin bütün kəndlərində mövcud problemlər həll olunarsa, demək olar ki, biz öz işimizi daha da yüksək səviyyəyə qaldıra bilərik”.

Dövlət başçısı həmçinin pandemiya dövründə ölkənin sosial-iqtisadi durumu, həyata keçirilən regional proqramlardan danışaraq vurğuladı ki, indiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək. Dövlət başçısı onu da bildirdi ki, bütün bu proqramlar məhz yerlərdən gələn müraciətlər əsasında tərtib edilib və ardıcıllıqla icra olunur: “Əgər 2004-cü ildə birinci proqram və ondan sonrakı illərdə digər proqramlar qəbul olunmasaydı, bu gün Azərbaycan regionları bu qədər inkişaf edə bilməzdi”.

### Sahibkarlara təzyiqlər aradan qaldırılmalıdır

Ölkə Prezidenti hazırkı durumda sahibkarlığın inkişafının daha böyük əhəmiyyət daşıdığını diqqətə çatdıraraq vurğuladı ki, bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb və sahibkarlığın inkişafı ölkəmizin ümumi inkişafı ilə bağlıdır: “Sahibkarlığın inkişafı ölkəmizin ümumi inkişafı ilə birbaşa bağlı olan məsələdir. Bizim iqtisadiyyatımız öz dayanıqlılığını saxlamalıdır, möhkəmləndirməlidir. Buna nail olmaq üçün əlbəttə ki, qeyri-neft sektorumuz inkişaf etməlidir. Bu inkişaf 2020-ci ilə qədər çox sürətli idi. Pandemiya ilə əlaqədar bütün ölkələrdə iqtisadi tənəzzül müşahidə olunur, o cümlədən bizdə”.

“Ancaq bizdə bu rəqəm kifayət qədər aşağı səviyyədədir. İqtisadiyyat 7 ay ərzində cəmi 2,8 faiz düşübdür. İnkişaf etmiş ölkələrin bəzilərində bu rəqəm 30 faizə çatıb, Avropa məkanında 20 faizə çatır, ümumi avrozona məkanında təqribən 15 faizə yaxındır. Azərbaycanda bu rəqəmin aşağı səviyyədə olması hesab edirəm ki, bizim böyük nailiyyət kimi qiymətləndirilməlidir”,- deyən dövlət başçısı öildiridi ki, Azərbaycanda artıq formalaşmış sahibkarlar sinfi ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır və icra başçıları da sahibkarlara dəstək olmalıdır.

Prezident İlham Əliyev bəzi rayonlarda sahibkarların incidildiyini, yerli icra orqanları tərəfindən rüşvət tələb olunduğunu bildirib: “Əfsuslar olsun ki, bəzi rayonlarda sahibkarlar incidilir, onların qarşısında süni əngəllər törədilir, onlardan yerli icra orqanları tərəfindən rüşvət, pay tələb olunur. Buna qətiyyən yol vermək olmaz və bu məsələlərə çox ciddi nəzarət olmalıdır. Sahibkarlar dövlət məmurları tərəfindən yalnız dəstək, kömək görməlidirlər və sahibkar ancaq dövlətin vergisini ödəməlidir. Bundan başqa, heç kimə heç bir vəsait ödənilməməlidir. O sahibkarlar ki, öz sosial məsuliyyətini dərk edir və ağır vəziyyətdə yaşayan insanlara əl tutur, əlbəttə ki, o sahibkarlara mənim münasibətim də fərqlidir, müsbətdir və şadam ki, son illərdə belə sahibkarların sayı artmaqdadır”.

“Dövlət sahibkarlara dəstək göstərir, müdafiə edir, şərait yaradır, onların gəlirlərinin artırılmasına çalışır. Sahibkarlar da, öz növbəsində, dövlətin vergisini qəpiyinə qədər ödəməlidirlər”,- deyən dövlət başçısı kölgə iqtisadiyyatına yol verənlər məsuliyyətə cəlb edilməlidir: “Burada kölgə iqtisadiyyatına yol verilməməlidir, ikili mühasibat olmamalıdır. Əgər olarsa, bu sahibkarlar məsuliyyətə cəlb edilməlidirlər. Eyni zamanda, sahibkarlar bu gün hələ də ağır vəziyyətdə yaşayan insanlara kömək göstərməlidirlər”.

### “Bir çox dövlət məmurları hesab edirlər ki, onlara hansısa xüsusi imtiyaz verilib”

“Siz öz davranışınızla insanların hörmətini qazanmalısınız. Təvazökar olmalısınız, həm işdə, həm məişətdə, həm özünüz, həm yaxın qohumlarınız. İnsanları qıcıqlandıra biləcək addımlar atmamalısınız. Özünüzü hamıdan yuxarıda hiss etməməlisiniz”,- deyən dövlət başçısı bəzi hallarda bəzi xırda səviyyəli məmurları özlərini ağa kimi, xan kimi aparırlar: “Özlərini ağa kimi, xan kimi aparırlar, insanlara yuxarıdan aşağı baxırlar. Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla bütün dövlət məmurları xalqın xidmətçisidir. Məhz buna görə biz bu vəzifədəyik. Buna görə xalq mənə etibar edib və mən təyin etdiyim bütün kadrlardan bunu tələb edirəm. Ancaq əfsuslar olsun ki, bir çox hallarda, bəzi hallarda yox, bir çox hallarda dövlət məmurları özlərini apara bilmirlər. Onlar hesab edirlər ki, onlara hansısa xüsusi imtiyaz verilib. Onlar qanunları pozurlar, bəzi hallarda çox ciddi pozurlar. Cəmiyyətimizdə formalaşmış ənənəvi davranış qaydalarını pozurlar”. Dövlət başçısı belə məmurların özünü xalqdan yuxarıda hiss etmələri xalq tərəfində ciddi narahatlıq doğurur və nəticədə beləleri cəzalandırılır: “Ona görə, siz məişətdə də, işdə də nümunə olmalısınız və özünüzü təvazökar aparmalısınız. Bu, bütün məmurlara, ictimai işlərdə çalışan bütün insanlara aiddir. Bizim bu məsələ ilə bağlı siyasətimiz, eyni zamanda, konkret işlərdə də özünü göstərir. Hesab edirəm ki, hər kəs artıq bunu özü üçün yəqin edib. Qaydaların pozulması və bunun acı nəticələri hər kəs üçün dərs olmalıdır”.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyev növbəti dəfə yeni təyin etdiyi İcra Hakimiyyəti başçılarını qəbul edərək onlara doğru istiqamət verdi və yeni kadrların fonunda digər məmurlara da sərt xəbərdarlığını etdi.

Ümumiyyətlə, hər kəs son aylar ölkədə korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndiyinə şahidlik edir. Bəzi rayonların icra hakimiyyəti başçılarının və ayrı-ayrı nazirliklərin struktur rəhbərlərinin işdən azad edilərək həbs olunmaları bir daha təsdiq edir ki, cənab İlham Əliyevin tapşırığına əsasən, korrupsiyaya qarşı amansız mübarizə başlayıb. Prezident isə bu istiqamətdə tədbirlərin daha da sürətləndiriləcəyini bəyan etdi.

**RƏFİQƏ KAMALQIZI**

## Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib



Avqustun 27-si saat 09:45 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə cəbhənin Füzuli rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

## Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu açıqlanıb

2020-ci ilin yanvar-iyul aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 2895,8 milyon manat vəsait yönəldilib. SİA xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 2535,7 milyon manatı (87,6 faizi) Birləşmiş Krallıq, ABŞ, Türkiyə, Yaponiya, İsveçrə, Malayziya, Norveç, Rusiya və İran sərmayədarlarına məxsus olmuşdur. Bildirək ki, 2020-ci ilin yanvar-iyul aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 62,7 faizini tikinti, yenidənqurma və genişləndirmə, 10,1 faizini əsaslı təmir, 8,0 faizini cari təmir, 19,2 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 84,7 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

## Aydın Quliyev: "SƏS" qəzetinin etdiyi yenilik Azərbaycanda gözlənilən nəticəni verəcək



"SƏS" qəzetini bu uğurlu layihəsi münasibətilə təbrik edirəm. Həqiqətən də əhəmiyyətli bir yenilikdir. "SƏS" qəzeti özünü yeniləşdirmə, təkmilləşdirmə və qəzet texnologiyasında müasir trendlərin özfəaliyyətinə tətbiq olunması nöqteyi nəzərdən çox əhəmiyyətli bir addım atıb. Bildiyim qədərilə bu Azərbaycanda ilk təcrübədir və əminliklə deyə bilərəm ki, müasir dünya qəzetçiliyində, çap mediası tarixində, onun müasir vəziyyətində ən yeni texnologiyadır". BunuSİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Onun sözlərinə görə, bu yenilik oxucunun işini xeyli dərəcədə asanlaşdırır: "Həm də çap medianın informasiya ilə əhatə dairəsini xeyli dərəcədə genişləndirir. Eyni vaxtda qəzeti əlinə götürən oxucu həm də onun videobloku ilə tanış olmaq imkanı əldə edir. Yəni, internet media resurslarına daxil olmaq üçün müəyyən cihazlardan istifadə etmək yox, birbaşa qəzetin özünün vasitəsilə onun videoblokuna daxil olmaq imkanı əldə olnur. Həmçinin cəmiyyətin video informasiya bloku ilə daha yaxından tanış olması üçün imkanlar açır".

A.Quliyevin fikrinə görə, bu yeniliyin tətbiqinin Azərbaycanda gözlənilən nəticəni verəcək: "Digər qəzetlər də təbii ki, bundan istifadə edəcəklər. Bu ideya şəxsən mənim özümün çox xoşuma gəldi və bu proqramın tətdiq olunması üçün artıq müəyyən planlar var. Mütləq "Bakı Xəbər" qəzeti də belə bir yeniliyə imza atacaq. Bu layihə həm qəzetin özünə vizual olaraq baxmaq, həm də texnologiyanın imkanlarından istifadə edərək qəzetin video məlumat blokuna daxil olmaq imkanları verir. Bu uğurlu yenilik münasibətilə "SƏS" kollektivini bir daha təbrik edirəm".

## Hikmət Babaoğlu: "Səs" qəzetində tətbiq edilən yeni metod çox mühüm hadisədir



"Çap mediası hazırkı innovativ texnologiyaların verdiyi bütün imkanlardan istifadə etməklə öz ömrünü uzada bilər. Yaxud yeni keyfiyyət mərhələsinə qədəm qoya bilər. Ona görə də, hazırda milli mərtbuatımız bu istiqamətdə müəyyən axtarışlar etməkdədir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, tələbkar informasiya istehlakçısının tələb zövüqünü təmin etmək çətin bir məsələdir: "Bu mənada Azərbaycan mətbuatında axtarışların davam etdiyi bir dövrdə "Səs" qəzetinin yeni texnologiyalardan istifadə etməklə, yeni metod tapması və bunu internet resursları üzərindən təbiq etməsi mühüm bir hadisədir".

H.Babaoğlu vurğulayıb ki, klassik media bügünkü axtarışlar prosesində bu tələblərə cavab verəcək metodlar və üsullar tapmasa onun oxucusu da azalacaq: "Məhz bu baxımdan yenilik təqdirəlayiqdir. Bundan sonrakı mərhələdə şübhəsiz ki, qəzetin oxuculara çatmasında, onların informasiya zövqününü oxşamasında mühüm yeni alətlərdən birinə çevriləcəkdir".

## Vüqar Rəhimzadə: "Növbəti yaradıcılıq nümunəsini də "SƏS" qəzetinin kollektivi ortaya qoyub"



"Əvvəla "SƏS" qəzetinin kollektivini qəzetdə yaradılan yeni layihə ilə əlaqədar təbrik edirəm və hesab edirəm ki, bu uğurlu bir yenilikdir. Həm informasiyanı operativ şəkildə əldə etmək və eyni zamanda qəzetin çap mətbuatından elektron versiyaya keçirmək baxımından bir yenilikdir". BunuSİA-ya açıqlamasında "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib. Onun sözlərinə görə, bu layihə oxucuya informasiyanın operativ olaraq çatdırılmasında önəmli rol oynayan bir hadisədir: "Bu rəngarənglik, fərqlilik, dizayn, üslub baxımından yeni bir manevrdir. "SƏS" qəzetinin növbəti bu addımı təqdirəlayiqdir və bu yenilik düşünürəm ki, zaman-zaman bir çox media orqanlarında öz əksini tapacaq. Ölkəmizdə, xüsusilə elektron media qurumlarının sürətlə inkişaf etdiyi bir dövrdə bu cür yeniliyə "SƏS" qəzetinin imza atması çox təqdirəlayiqdir. Mən "SƏS" qəzetinə uğurlar arzu edirəm. "SƏS" kollektivinə yeni, uğurlu layihələrə təşəbbüslərində, yeni hədəflərə çatmalarında uğurlar diləyirəm".

V.Rəhimzadə vurğulayıb ki, jurnalistika sahəsi elə bir sahədir ki, daim yenilik, yaradıcılıq və öz üzərində işləməyi tələb edir: "Növbəti bir yaradıcılıq nümunəsini "SƏS" qəzetinin kollektivi ortaya qoyub. Bu yaradıcılıq hər birimiz üçün dəyərli və qiymətlidir. Həqiqətən də bu yaradıcılıq oxucu-media münasibətlərinin daha da sıxlaşmasında, təmasın daha da dərindən qurulmasında çox önəmli rol oynayacaq. Ürəkdən təbrik edir, alqışlayıram. "SƏS" qəzetinin dostumuz Bəhruz Quliyev başda olmaqla bütün kollektivinə yeni yaradıcılıq uğurları arzu edirəm".

***Aysel Məmmədova***

## "İslahatlar Azərbaycanı enerji idxal edən ölkədən ixrac edən ölkəyə çevirib"



"Avqustun 21-də 1000 meqavat yükötürmə gücü olan 330/220/110 kilovoltluq "Qobu" elektrik yarımstansiyasının təməlinin qoyulması Azərbaycanın enerji sektorunda vacib hadisələrdən biridir". SİA-nın verdiyi məlumata görə, bu fikri Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

V.Bayramov bildirib ki, son illər aparılan islahatlar Azərbaycanı enerji idxal edən ölkədən ixrac edən ölkəyə çevirib. Nəzərə alsaq ki, əgər 2006-cı ildə Azərbaycan illik olaraq saatda 1,7 milyon kilovat elektrik enerjisi idxal edirdisə, 2020-ci ildə bu rəqəm Azərbaycanın saatda 1,5 milyon kilovata yaxın enerji ixracatına çevrilib. İstehsalın ötən müddətdə qorunub saxlanması fonunda istehlakın azalmasını müşahidə etmişik. İstehlakın azalması da 2 faizin kəskin aşağı salınması ilə bağlı idi. Belə ki, 2006-cı illə müqayisədə enerji sektorunda itki 42 faizdən 9 faizə qədər aşağı salınıb. Bu da təbii ki, tələbin ödənilməsində rasional bir yanaşma idi. Çünki istehlak azalsa da, tələb artıb. 2006-cı illə müqayisədə abonentlərin sayı 1,7 milyondan 2,7 milyon nəfərə qədər artıb".

"Tələbin artması fonunda bu sektorda aparılan islahatlar imkan verir ki, Azərbaycan optimallaşdırılmış istehsalla tələbi ödəyə bilsin. Bu sektorda həyata keçirilən islahatlar növbəti dövrlərdə Azərbaycanın ixrac imkanlarını genişləndirəcək, ölkəyə valyutanın daxil olmasına imkan yaradacaq. Praktik olaraq son illər biz bu sektorda infrastrukturun genişləndirilməsinə xidmət edən tədbirlər fonunda Azərbaycanın enerji sektorunun həm ixrac, həm də tələbin ödənilməsi baxımından yeni mərhələyə qədəm qoymasını müşahidə edirik", - deyə V.Bayramov qeyd edib.

***Ceyhun Rasimoğlu***

## "Ermənistanın girovluğundakı azərbaycanlıların hər günü işgənlərlə keçir"



"Azərbaycan hərbçilərinin uğurlu taktiki hərbi əməliyyatı nəticəsində, avqustun 23-də Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin növəti təxribatının qarşısının alınması zamanı döyüşlərdə erməni diversiya qrupunun komandiri, baş leytenant, Qurgen Alaverdyan əsir götürülüb." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Azərbaycan Milli QHT Forumunun vitse-prezidenti, Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri Nüşabə Məmmədova deyib. Alyansın sədri xatırladıb ki, bu ilk hadisə deyil və 2014-cü ilin avqust ayında Karen Petrosyan, həmin ilin dekabrında Arsen Baqdasaryan, 2018-ci ilin iyulunda Qazaryan Karen erməni diversantları qoşunların təmas xəttini keçərək təxribat törətməyə cəhd göstərdikləri zaman əsir götürülmüşdür.

"Hazırda Ermənistanın mediasında bir neçə gün öncə əsir görtürülmüş erməni diversant Qurgin Alberyanın dəyişdirilməsi ilə bağlı müxtəlif təkliflər gündəmdədir. Bu vaxta qədər Ermənistan tərəfi əsir və girovların dəyişdirilməsinə bağlı mövqeyi dəyişilməz idi. Lakin ilk dəfədir ki, erməni diversiya qrupunun komandiri, baş leytenant, Qurgen Alaverdya əsir düşdükdən sonra erməni tərəfindən əsir və girovların dəyişdirilməsi ilə bağlı fikirlər irəli sürülür. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesində Azərbaycan dövlət rəsmiləri tərəfindən əsir və girovların "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsinə rəsmi Bakının hazır olduğunu dəfələrlə bildirib. Düşünürəm ki, hazırkı vəziyyət bu məsləni yenidən gündəmə gətirə bilər, əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsi tərəflər arasında yenidən müzakirə obyektinə çevrilə bilər.

Altı ildir ki, azərbaycanlı məcburi köçkünlər Dilqəm Əsgərov və Şahbaz Quliyev Ermənistan tərəfindən girovluqda saxlanılmaqdadır. Dilqəm Əsgərov və Şahbaz Quliyev Ermənistanın işğalı altında olan Kəlbəcər rayonunda valideynlərinin məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb, onların yanında olan Həsən Həsənov qətlə yetirilib. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin təşkil etdiyi "məhkəmə" tərəfindən Dilqəm Əsgərov "ömürlük", Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib. Hər iki azərbaycanlı mülki şəxsin Ermənistan girovluğunda hər bir günü işgənlərlə keçir. Mediada yayılan fotolar, videolar, onların girovluqda saxlandıqları müddətdə qeyri-insani rəftara, fiziki və mənəvi işgəncələrə məruz qaldığını açıq şəkildə sübut edir. 30 ildən çoxdur Ermənistanın Azərbaycana qarşı davam edən ərazi iddiaları, hərbi təcavüzü nəticəsində ölkəmizin Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal olunub. İşğal edilmiş ərazilərdə etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı, o cümlədən Dilqəm Əsgərov və Şahbaz Quliyevin ailə üzvləri öz doğma yurd-yuvalarından didərgin salınıb. 3888 Azərbaycan vətəndaşı itkin düşüb, girov götürülüb; onlardan 718-i mülki şəxslərdir, o cümlədən 266 qadın, 71 uşaq və 326 yaşlı şəxs itkin düşmüş və girov götürülmüşdür", deyə Nüşabə Məmmədova bildirib.

***İnam Hacıyev***

## Müəllimlərin əməkhaqqında dəyişiklik olacaq?



Müəllimlərin əməkhaqqının ənənəvi hesablanması qaydası tədrisin təşkili formasından asılı olaraq dəyişmir.

Xezerxeber.az xəbər verir ki, bunu avqustun 27-də COVID-19 pandemiyası dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı keçirilən brifinqdə Təhsil naziri Emin Əmrullayev deyib.

Nazir bildirib ki, şagirdlərin yerdəyişməsi adi qaydada davam edəcək. Rayon qeydiyyatında olan və rayona gedən valideynlər Bakıya qayıtmaq istəyirsə və qayıda bilirsə, övladının paytaxtda təhsilinin davam etdirməsi ilə bağlı heç bir problem yoxdur. Şagirdlər onlayn qaydada da təhsillərini davam etdirə bilərlər. Azərbaycanın istənilən kənd və qəsəbəsində məktəb var, şagirdlər yerdəyişmə ilə o məktəblərdə də dərslərini davam etdirə bilərlər.

***"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir".***

*Mehriban Əliyeva*



# Azərbaycan qadınının ləyaqət və alilik simvolu

*Mehriban Əliyeva - Varlığı və fəaliyyəti ilə ölkəsinə ucalıq şərəfi gətirən dəyərli Azərbaycan xanımı*

Respublikanın ictimai-siyasi, mədəni və sosial həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını həm də dünya miqyasında beynəlxalq cəmiyyətin nüfuz sahibinə çevrilib. Onun qadın gözəlliyi, qadın idarəsi, saflığı və sədaqəti, əlbəttə ki, xalqımızın çoxəsrlik milli-mənəvi dəyərləri sistemində formalaşıb. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində əvəzsiz, müstəsna rola malikdir. Bu gün müasirimiz olan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, məhz Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əhəmiyyətli rola malikdir. Azərbaycanda baş verən nəhəng sıçrayışlarda, ölkənin simasının gündən-günə dəyişməsində, dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer qazanmasında, bütün bəşəriyyəti ağuşuna alan koronavirusa qarşı mübarizədə Azərbaycan Prezidenti İlham Əliyev cənabları ilə birgə fəaliyyət göstərən



***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

Mehriban xanım Əliyevanın danılmaz fəaliyyəti, genişmiqyaslı layihələri öz uğurlu nəticəsini verib. Onun həyata keçirdiyi layihələr yerli əhəmiyyətli sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək məqsədi daşıyır. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım edir. Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi istiqamətində önəmlidir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək istiqamətində böyük mahiyyət daşıyan addımlar Mehriban xanım Əliyevanın humanizm prinsiplərinə söykənir.

Öz varlığı ilə məmləkətinə şərəf gətirən Azərbaycanın birinci xanımının fəaliyyəti Azərbaycan haqqında olan təsəvvürlərin ciddi şəkildə dəyişilməsi ilə nəticələnib. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxdı. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail oldu. Öz peşəkarlığı, dünya arenasında baş verən hadisələrə yanaşması ilə humanist insan obrazını canlandırdı. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin tərkib hissəsinə daxil olmasında atdığı addımlar çox əhəmiyyətli hadisədir. YUNESKO-nun, İSESKO-nun, eləcə də digər beynəlxalq nüfuzlu mədəniyyət təşkilatlarının elə bir tədbiri yoxdur ki, orada Azərbaycanın milli-mənəvi dəyərlərindən, mədəniyyətindən, qədim folklorundan söz açılmasın. O, tarixi həqiqətləri, tarixi faktları, dünyanın nüfuzlu təşkilatlarının iştirakı olan tədbirlərdə qonaqlara çatdıraraq, maraqlı faktlar əsasındakı çıxışları ilə ölkə həyatında baş verən hadisələrin təbliğinə nail olub. Eyni zamanda Onun humanizminin nəticəsi olaraq Azərbaycan əhalisinin sağlamlığı, xoşbəxtliyi geniş bir sferanı əhatə edib. Belə ki, ahıllara, qocalara, uşaqlara qayğı ilə yanaşmaq məsuliyyəti çox dəyərli Mehriban xanımın fəaliyyətində özünü təsdiqləyib.

Mehriban xanım Əliyeva tərəfindən yaradılan Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti nəinki Azərbaycanda, onun hüdudlarından kənarda belə əks-səda doğurub. Fond görkəmli siyasi xadim Heydər Əliyevin ölməz ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir. Bu yol Heydər Əliyevin müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə doğru yönəlib.

Hər bir azərbaycanlı üçün fərəhlidir ki, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın fəaliyyəti beynəlxalq səviyyədə diqqətdədir. Onun gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsində sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun"Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə İSESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatı, Mərhum Polşa prezidenti Lex Kaçinski tərəfindən Azərbaycanla Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni, Fransanın eks-prezidenti Nikolya Sarkozinin sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilməsi və digər belə mükafatlar Onun fəaliyyətinin real qiymətidir.

Fəaliyyətinə görə təqdim olunan mükafatların davamı olaraq Onun Pakistanın nüfuzlu "Daily times" qəzeti və Qadın Könüllülər Təşkilatının "Humanizm simvolu-2012-ci ilin adamı" elan edilməsi də bəşəri, humanizm prinsiplərini yüksək tutmasına söykənir. Mehriban xanım bu ada Heydər Əliyev Fondunun 2012-ci ildə Pakistanın bütün əyalətlərində keçirdiyi humanitar aksiyalara, o cümlədən, təhsil və səhiyyə sahəsində işlərə görə layiq görülüb. Qeyd edək ki, Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanda bir sıra layihələr gerçəkləşib. Belə ki, 2007-ci ildə Pakistanın zəlzələdən zərər çəkən Müzəffərabad şəhərində qızlar məktəbi tikilib, həmin məktəb əsaslı təmir edilib, orada yenidənqurma işləri aparılıb. Bu və ya digər gördüyü işlər onu "Humanizm simvolu-2012-ci ilin adamı" elan edib. Mehriban xanım Əliyeva qarşıya qoyduğu məqsədə doğru daim addımlayır. Özünü, özünün kimliyini gördüyü işlərlə təsdiqləyir və fərdi dəyərlərini ortaya qoyaraq həyat missiyasını gerçəkləşdirir, Azərbaycan tarixinə silinməz izləri, əməlləri ilə həkk olunur.

Bu gün gözəl Bakımızda Beynəlxalq Muğam Mərkəzinin yaradıldı, Azərbaycanın qədim musiqisi olan əsrarəngiz muğam musiqisinin YUNESKO-nun qeyri-maddi irs siyahısına salındı. Mehriban xanımın rəhbərliyi ilə hazırlanan və məşhur muğam ustalarının valehedici ifalarının toplandığı"Qarabağ xanəndələri" albomu bu gün bütün dünyada onu sadəcə bircə dəfə dinləyənləri cazibəsindən buraxmır, heyran qoyur. Mehriban xanım Əliyevanın YUNESKO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə, həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasına toxunmayan bir çıxışını belə xatırlamaq çətindir. O, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görür. Dünyanın demək olar ki, bir çox dillərində"Azərbaycan həqiqətləri" adlı kitablar nəşr olunub ki, burada Qarabağın tarixi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda törətdikləri soyqırım, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, türk insanına qarşı vəhşilikləri barədə geniş məlumatlar öz əksini tapır. Bundan başqa Heydər Əliyev Fondu Ermənistanın Xocalı şəhərində törətdiyi soyqırımı dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə dildə film də hazırlamışdır. Dünyanın bir çox ölkələrində fondun dəstəyi ilə Xocalı soyqırımının ildönümündə böyük tədbirlər keçirilir, Xocalı soyqırımını anladan foto və "Xocalı uşaqların gözü ilə" adlı rəsm sərgiləri nümayiş olunur. Həmin dövrdə bu soyqırımla bağlı dünyanın kütləvi informasiya vasitələri jurnalistlərinin şahidi olduqları materiallardan, onların məqalələrindən ibarət sərgi də dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Mehriban Əliyevanın rəhbərlik etdiyi fond erməni yalanlarını, Azərbaycan həqiqətlərini, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vəhşilikləri bütün insanlığa məxsus olan dini, tarixi və mədəni abidələrin dağıdılmasını özündə əks etdirən çoxlu sayda kitablar nəşr etdirərək təkcə Azərbaycana deyil, dünya ictimaiyyətinə doğru məlumatların çatdırılması istiqamətində böyük işlər görür.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın keçdiyi həyat yoluna nəzər saldıqda qısa zaman ərzində gördüyü böyük işlər insanı valeh edir. Bu sadəcə SEÇİLMİŞLƏRƏ verilən bir istedad, ağıl və güc sayəsində mümkündür. Bütün bu əhəmiyyətli faktorlar isə Mehriban xanım Əliyevanın xarizmasında mövcuddur. Bu ali mövcudluq Azərbaycanın adının daha da uca tutulmasında müstəsna rol oynayır.



## “Dövlətimiz Azərbaycanda virusun tamamilə yox olmasına çalışır”

“Pandemiya dövründə aparılan siyasət iqtisadiyyatda böyük böhranın baş verməsinə imkan vermədi, bununla da, pandemiyadan sonra istənilən fövqəladə vəziyyətə qarşı dözümlü olacaq iqtisadi sahələrin inkişafına böyük diqqət yetiriləcək”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə Komitəsinin üzvü olan deputatı Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, koronavirus pandemiyası bəşər tarixində bütün dünyanı bürüyən ilk ağır problemdir, bu problem ilə hər bir dövlət özünün resursları və hazırlığı hesabına mübarizə aparır: “Azərbaycan bu gün pandemiyaya qarşı uğurla mübarizə aparan ölkələr sırasındadır. Hesab edirəm ki, Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycanda sosial obyektlərin tikintisi, infrostrukturun və səhiyyə sisteminin yaxşılaşdırılması ilə bağlı atılan addımlar olmasa idi, bu gün biz də ağır vəziyyətdə ola bilərdik. Məhz, aparılan siyasətin nəticəsidir ki, bu gün koronavirusa yoluxmaların qarşısını almaq olur, xəstələr dövlət hesabına müalicə olunur, ən əsası isə profilaktik tədbirlər pandemiyanın yayılmasının qarşısını alır. Hazırda, nəticələr normaldır”.

Millət vəkili bildirib ki, dövlətimiz Azərbaycanda virusun tamamilə yox olmasına çalışır və buna mütləq nail olacaq: “Gündəlik yoluxma sayının aşağı düşməsi virusla mübarizənin səmərəli aparıldığını göstərir. Bütün dünya COVID-19 pandemiyasından tamamilə xilas olmaq çalışır. Nəticədə isə hər bir şəxs yoluxucu xəstəliklərlə mübarizədə təkcə dövlətin yox, özünün də bu istiqamətdə fəaliyyətinin səmərəli olduğu qənaətinə gələcək. Digər tərəfdən Azərbaycanda səhiyyə sisteminin daha inkişaf etdirilməsi üçün daha böyük addımlar atılacaq. Bu illərlə Azərbaycanda tamamilə tibbi sığorta sisteminə keçid nəzərdə tutulmuşdu. Lakin, pandemiya bunu ləngitti. Növbəti dövrdə tibbi sığortaya keçid davam edəcək və daha yaxşı nəticələr əldə ediləcək”.

Aydın Mirzəzadə əlavə edib ki, aparılan siyasət iqtisadiyyatda da böyük böhranın baş verməsinə imkan vermədi, bununla da pandemiyadan sonra istənilən fövqəladə vəziyyətə qarşı dözümlü olacaq iqtisadi sahələrin inkişafına böyük diqqət yetiriləcək: “Pandemiya dövründə Azərbaycanın qazandığı ən böyük nailiyyətlərdən biri də insanların sosial vəziyyətinin pisləşməsinin qarşısını almaq idi. İş yerlərini itirən insanlara dövlət tərəfindən maddi yardımın, sahibkarlara iqtisadi dəstəyin göstərilməsi də bu qəlibdən olan məsələlərdən hesab edilə bilər. Pandemiyadan sonra, əlbəttə ki, dövlət iqtisadiyyatın güclənməsi, insanların sosial vəziyyətinin yaxşılaşdırılması, iqtisadi fəallığın artması məsələlərinə daha böyük diqqət yetirəcək. Pandemiya ilə mübarizə onu göstərdi ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən dövlətçilik fəlsəfəsinin düzgün seçilməsi və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan xalqının milli maraqlarına cavab verir. Azərbaycan dövləti bu gün hər bir vətəndaşın maraqlarının qorunmasında böyük işlər görür. Hər bir vətəndaş bu günü və sabahı üçün öz dövlətinə arxalanmışdır”.

*Nigar Məmmədova*

## “Ordumuzun qətiyyətli zərbələri nəticəsində düşmən hər dəfə ağır itkilər verərək geri çəkilməyə məcbur ediləcək”



Ermənistan hakimiyyəti 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin utancverici məğlubiyyətindən sonra erməni xalqı arasında hakimiyyətin və ordunun tapdalanmış nüfuzunun bərpası üçün “əlindən gələni” etməyə çalışır.

Bunu ehtiyatda olan zabit Yunis Eldaroğlu AZƏRTAC-a açıqlamasında deyib.

Zabit bildirib ki, belə cəhdlərdən biri də iyulda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş döyüş toqquşmasında özünü büruzə verdi. Lakin ermənilər bu dəfə də gözlədikləri nəticəni nəinki əldə edə bilmədilər, hətta daha böyük utanc hissi yaşamağa məcbur oldular. Necə deyərlər, bu dəfə onlar qaş düzəltmək istədikləri yerdə, göz çıxardılar.

Ordularının ardıcıl olaraq biabırçı məğlubiyyətə uğraması erməni xalqının haqlı narazılığına səbəb oldu. Bataqlıqda çabalayan Ermənistan ordusu “saman çöpündən yapışmaq” misalında olduğu kimi, bu dəfə avqustun 23-də kəşfiyyat-diversiya qrupundan istifadə edərək erməni xislətinə xas bir şəkildə növbəti təxribata cəhd etdi. Amma Azərbaycan Ordusunun bölmələri sayıqlığı ilə “sən saydığını say, gör fələk nə sayır” məsəlini ermənilərə ustalıqla xatırlatmış oldu.

Hər dəfə uğursuzluqlarını ört-basdır etməyə çalışan Ermənistan rəhbərliyi hakimiyyətə qarşı çıxan narazı erməni əhalisinin etirazlarını daha da artırmamaq, başqa sözlə, odun üstünə benzin tökməmək, məqsədilə bu məsələyə də don geyindirmək məcburiyyətində qaldı. Reallığı gizlətmək üçün xalqının gözündən pərdə asaraq yalan bəyanatlar yaymaq üzrə “mütəxəssis” olan düşmən, yenə sevimli peşəsinə - yalan və uydurma izahatlara əl atdı. Belə ki, avqustun 23-də təxribat törətməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun komandiri baş leytenant Qurgen Alaverdyanın guya yolu azaraq Azərbaycan tərəfinə keçməsi barədə məlumat yayıldı.

Əslində bunun özü belə utancverici hadisədir. Bir ordunun zabiti uzun müddət xidmət etdiyi postda azarsa, o ordunun əsgər, çavuş və gizirlərindən nə gözləmək olar?! Amma indiki vəziyyətdə erməni hakimiyyətinin başqa bir bəhanə uydurma şansı yox idi. Üzərində silah-sursat, əynində hərbi forma olan birinə bu dəfə çoban damğası vurula bilməzdi.

“Ermənistan hakimiyyəti gələcəkdə yeni bəhanələr uydurmağa məcbur qalmamaq üçün hərbçilərini öz “yuvalarında” oturtmalıdır. Düşmən bilməlidir ki, günbəgün güclənən, peşəkar kadr və müasir silahlarla komplektləşdirilmiş Azərbaycan Ordusu hər an öz xidmətini ayıq-sayıq yerinə yetirir və döyüş növbətçiliyi aparır. Düşmənin döyüş tapşırığını yerinə yetirən hərbçilərimizin dayandıqları səngərlərimizdən nəinki keçməyə, oraya heç yaxınlaşmağa belə şansı yoxdur. Bununla yanaşı, əgər işğalçı ordunun hərbi qulluqçuları əsgərlərimizin gücünü bir daha da sınamaq və bu gücün təsirini öz üzərində hiss etmək istəyirsə yenə də cəhd edə bilərlər. Amma düşmən anlamalıdır ki, bu dəfə də onların kəşfiyyat-diversiya qruplarının aqibəti əvvəlkilərdən fərqli olmayacaq. Yenə də bölmələrimizin qətiyyətli addımları və adekvat tədbirləri nəticəsində düşmən itkilərə məruz qalaraq geri çəkilməyə məcbur ediləcək”, - deyə zabit qeyd edib.

## Türkiyə və ABŞ prezidentləri arasında telefon danışığı baş tutub



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ABŞ Prezidenti Donald Tramp arasında telefon danışığı baş tutub. SİA “Anadolu”ya istinadən xəbər verir ki, bu barədə Türkiyənin Rabitə Nazirliyi açıqlama yayıb. Danışıq zamanı xüsusilə Şərqi Aralıq dənizindəki ikitərəfli məsələlər və regional proseslər müzakirə olunub. Prezident Ərdoğan Türkiyənin Aralıq dənizinin şərqində qeyri-sabitlik yaradan tərəf olmadığını xatırladaraq, Ankaranın gərginliyin azaldılması və dialoqun baş tutmasının tərəfdarı olmasının atılmış konkret addımlarla sübuta yetirildiyini vurğulayıb.

## “Lavrov Ceyhun Bayramovun iradını ciddi qəbul etdi”



“Rusiyaya səfəri zamanı baş tutan görüşdə Azərbaycanın XİN başçısı Ceyhun Bayramov Lavrovun diqqətinə çatdırdı ki, Rusiyanın Tovuz təxribatından sonra bir neçə dəfə təklif etdiyi Azərbaycan və Ermənistan XİN başçıları arasında danışıqların bərpası o halda mümkündür ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsin. Yeri gəlmişkən, Rusiya XİN rəhbəri ilə danışıqlardan sonra Lavrov erməni həmkarına zəng edib”. Bu sözləri SİA-ya açıqlamasında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib. Onun sözlərinə görə, görüşdə əldə olunan ən böyük məhsuldarlıq son zamanlar münaqişənin nizamlanması ilə bağlı Azərbaycanın və Rusiyanın son baxış bucaqlarının bir-birilərinə çatdırılması idi: “Görüş zamanı Lavrovun narahat olduğu Azərbaycanın bundan sonrakı xarici siyasətindəki vurğular məsələsinə də aydınlıq gətirilib. Yeni Xarici İşlər naziri zamanı Azərbaycanın xarici siyasətindəki prioritetlər məsələsi Lavrova aydın olub. Məlum olub ki, regiondakı geoiqtisadi münasibətlərdə dəyişikliklər olmayacaq. Eyni zamanda Rusiyanın Şanxay Əməkdaşlıq Təşkilatında bizə təklif etdiyi müşahidəçi statusu da, hələ də öz qüvvəsindədir”.

Ekspert bildirib ki, Rusiya XİN rəhbəri mətbuat qarşısında çıxışı zamanı Türkiyənin Minsk qrupunun həmsədr ölkə kimi danışıqlara cəlb edilməsini yolverilməz sayıb, buna baxmayaraq, Zaur Məmmədovun fikrincə, Lavrov Ceyhun Bayramovun Moskvaya münaqişənin nizamlanmasında yetərli səylər göstərmədikləri ilə bağlı iradını ciddi qəbul etdi: “Yaxın həftələr ərzində yenidən “Lavrov planının” Ermənistanda müzakirə predmeti olacağını istisna etmirəm. Azərbaycan bu məsələdə prinsipiallıq nümayiş etdirərək silah sazişi müqabilində bir neçə rayonun azad olunmasını istəyir və hələki vaxtı uzadır. Ümumilikdə, Azərbaycan-Rusiya münasibətlərini təhlil edərkən, biz pis-yaxşı formulundan uzaq olmalıyıq. Siyasətdə maraqlar var və bu maraqların müzakirəsi üçün diplomatların səylərinə ehtiyac var. Heç nə ağ və qara olaraq qəbul edilməməlidir. Çünki siyasi proseslərdə rənglər dəyişkəndir”.

Politoloq qeyd edib ki, tərəflərin baxış bucaqları bəllidir, bundan sonra Azərbaycan və Rusiyanın bir-birinə təklifləri üzərində iş davam etməlidir.

*Nigar Məmmədova*

## “ATƏT-in Minsk qrupu özündə cəsarət tapıb düşməni öz adı ilə çağırmalıdır”



“Avqustun 23 də cəbhənin Goronboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun təxribat törətmək cəhdi və qrupun komandirinin əsir düşməsi, Ermənistanın Azərbaycana qarşı növbəti dəfə terror və işğalçılıq siyasətinin davamıdır. Məlumdur ki, diversiya-kəşfiyyat qrupunun komandirinin üzərində bir sıra hərbi ləvazimatlar və şəxsi əşyalar aşkarlanıb və geniş ictimaiyyətə təqdim olunub. Bu Tovuz hadisələrindən sonra düşmənin ölkəmizə qarşı növbəti uğursuz təxribat cəhdidir”. Bunu SİA-ya açıqlamasında Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM sədri, politoloq Rufiz Qonaqov deyib.

Onun sözlərinə görə, mahiyyət etibarilə sobataj, diversiya və terror məqsədi daşıyan bu aksiyanın əsas hədəfi Azərbaycan Ordusunun hərbi hissələri və əsgərlərimiz olub: “Lakin ordumuzun ayıq sayıqlığı, peşəkarlığı nəticəsində bu aksiyaların nəinki qarşısı alınıb, eləcədə, düşmən itkilər verərək, qorxaqcasına geri qaçmağa məcbur olub. Ermənistan tərəfi əvvəllər olduğu kimi bu dəfədə öz itgilərini gizlətməyə çalışır. Mövcud vəziyyət bu ölkədə kifayət qədər ağır olduğundan, işğalçı ordunun itkiləri erməni xalqından mümkün qədər gizlədilir.Hazırda Ermənistanın sosial şəbəkələrində Ordumuza əsir düşmüş Qurgin Alberyanın dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürülür. Bu onlar üçün əsir düşmüş hərbiçinin nə qədər önəmli şəxs olduğunu göstərir”.

R.Qonaqov vurğulayıb ki, Ermənistanın omdusmanı A.Tatoyan insan hüquqlarından dəm vurur: “Bu hansı insan hüquqlarıdır ki, Ermənistanın Cenevrə Konvensiyasının bütün tələblərini kobud şəkildə pozaraq, illərdir girov götürülmüş dinc vətəndaşlarımız Dilqəm Əsgərov, Şahbaz Quliyevə və Azərbaycanın digər dinc vətəndaşlarına işgəncələr verərək, vəhşicəsinə davranır. Nəhayət işğalçı və terrorçu Ermənistan anlamalıdır ki, Azərbaycanın onlara verəsi bir qarışda olsun torpağı yoxdur. Beynəlxalq təşkilatlar və ATƏT-in Minsk qrupu ya buraxılmalı, yada özündə cəsarət tapıb, düşməni öz adı ilə çağırmalıdır”.

*Aysel Məmmədova*

# Pandemiya dövründə Azərbaycanda miqrasiya idarəçiliyi

Vüsal Hüseynov, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi

***Yeni növ koronavirus xəstəliyinin (COVID-19) dünya dövlətləri qarşısında yaratdığı çağırışlar və insanların gündəlik həyatlarına gətirdiyi məhdudiyyətlər son dövrlər ən çox müzakirə edilən, həlli axtarılan mövzulardandır. COVID-19 pandemiyası bütün dünyada yeni situasiya və çoxsaylı çağırışlar yaratmışdır. Bu çağırışlar insan yerdəyişməsinə əhəmiyyətli təsir edərək, miqrasiya sahəsini də pandemiyadan ən çox zərərçəkən sahələrdən biri kimi meydana çıxarmışdır. Belə ki, COVİD-19-un daha çox insan təması ilə yayılan infeksiya olması dövlətləri bu virusdan qorunmaq üçün həmçinin sərhədlərin bağlanması, səyahət və hərəkət məhdudiyyətləri, sosial məsafə qaydalarının tətbiqi və digər bu kimi oxşar tədbirlər görməyə məcbur etmiş, bu isə öz növbəsində miqrasiya proseslərində kəskin neqativ nəticələrə səbəb olmuşdur. Bu şərtlər dövlətlər və beynəlxalq icma tərəfindən çevik qərarların qəbul edilməsini, həmrəylik göstərilməsi və sıx əməkdaşlıq edilməsini şərtləndirmiş və bu istiqamətlərdə saysız təşəbbüslər, tədbirlər həyata keçirilmiş, qərarlar qəbul olunmuşdur. Pandemiyanın elan edilməsindən keçən müddət ərzində müxtəlif ölkələrdəki vəziyyət və həyata keçirilmiş tədbirlərin nəticələri artıq dünya dövlətlərinin bu qlobal problemlə mübarizə siyasətlərinin, yanaşmalarının və verilmiş qərarların səmərəlilik səviyyəsini qiymətləndirməyə imkan yaradır.***



Azərbaycanın da bu xüsusda təcrübəsi təqdirəlayiqdir. Ölkəmiz koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün ilk günlərdən çevik və zəruri qabaqlayıcı addımlar atmış, pandemiyaya qarşı təxirəsalınmaz tədbirləri operativ həyata keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən pandemiyanın fəsadlarını minimuma endirmək, xəstəliyin geniş yayılmasının qarşısını almaq, səhiyyə sistemini gücləndirmək, sosial cəhətdən həssas əhaliyə davamlı dəstək və iqtisadi dayanıqlığı təmin etmək məqsədilə vaxtında və operativ qərarlar verilmişdir. Cənab Prezidentin tapşırığı ilə Azərbaycanda ilk yoluxma faktının qeydə alındığı tarixdən daha öncə Dövlət Miqrasiya Xidməti də daxil olmaqla, bütün aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması mövcud şəraitdə idarəetmənin və kommunikasiyanın düzgün qurulmasına, həmçinin çevik qərarların qəbul olunmasına imkan yaratmışdır. Pandemiya dövründə dövlətimiz üçün prioritet məsələ cənab Prezident İlham Əliyevin vurğuladığı kimi "insan sağlamlığı, insan həyatı və insanların sosial müdafiəsi" olmuşdur.

Ölkəmiz bu istiqamətdə, həmçinin digər dövlətlərlə həmrəylik göstərmiş, beynəlxalq tərəfdaşlarla, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığı gücləndirmiş, qlobal bəlaya qarşı mübarizədə hərətəfli yanaşma sərgiləyərək humanitar təşəbbüslərini də davam etdirmişdir. Belə ki, ölkəmiz tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar dəyərində könüllü ianələr ayrılmış, 30-dan çox ölkəyə humanitar yardımlar olunmuşdur.

Azərbaycanın COVID-19 dövründə miqrasiya idarəçiliyi ümumi olaraq əksər ölkələrin yaxşı təcrübələri ilə uyğunluq təşkil edir, bunula belə özünün spesifik xüsusiyyətləri ilə fərqlənir. Ölkəmizdə COVID-19 dövründə miqrasiya sahəsində də çevik, şəffaf və səmərəli idarəçilik modeli qurulmuşdur. Belə ki, Azərbaycan Respublikasında koronavirus infeksiyasına ilk yoluxma faktının qeydə alındığı 28 fevral 2020-ci il tarixdən sonra qısa müddət ərzində yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxış dayandırılmış, ölkə daxilində xüsusi karantin tədbirləri tətbiq edilmiş, daxili yerdəyişmə məhdudlaşdırılmışdır.

COVID-19 dövründə miqrasiya sahəsində ortaya çıxan əsas suallar ölkədə olan miqrantların hüquqi vəziyyəti, onların müracitələrinə baxılması və digər narahatlıqlarının aradan qaldırılması ilə bağlı görüləcək tədbirlər barədə idi. Ölkədə yaşama icazələri əsasında yaşayan miqrantların hüquqi vəziyyəti nisbətən stabil olsa da, Azərbaycana viza əsasında və ya vizasız qaydada gələn, ölkə ərazisinə giriş-çıxışa tətbiq edilən məhuduiyyət ilə əlaqədar geri qayıda bilməyən və ya qayıtmaq istəməyən əcnəbilərin hüquqi statusları-nın qeyri-müəyyənliyi narahatlıq doğuran məsələlərdən idi.

Pandemiyanın ortaya çıxdığı ilk vaxtlarda miqrasiya sahəsində beynəlxalq təcrübə formalaşma mərhələsində idi və aidiyyəti təşkilatlar da tövsiyələrini vermək üçün prosesi izləyir, yaxşı təcrübələri təhlil edirdilər. Vəziyyət isə vaxt itirmədən qərarların qəbul olunmasını tələb edirdi. Həmin dövrdə Azərbaycan miqrasiya siyasətini əcnəbilərin maksimum rahatlığı, inzibati prosedurların, demək olar ki, sıfıra endirilməsi və elektronlaşmanın geniş təşviqi üzərində qurdu. Azərbaycanla digər dövlətlər arasında sərnişin daşımaları məhdudlaşdırıldıqdan sonra, xüsusilə qonşu dövlətlər öz vətəndaşlarının keçidi üçün dövlət sərhədlərini xüsusi şərtlərlə açıq saxladılar, digər dövlətlər isə çarter reysləri təşkil etdilər. Bu müddətdə müxtəlif səbəblərdən öz ölkələrinə qayıtmaq istəməyən əcnəbilərin ölkədə qalma müddəti giriş-çıxışa qoyulan məhdudiyyətlər aradan qaldırılanadək uzadıldı və bunun üçün əlavə sənəd istənilmədi. Başqa sözlə, heç bir əcnəbi ölkədən çıxmağa məcbur edilmədi və bunun üçün onların hər hansı inzibati prosedurlardan keçməsi tələb olunmadı.

Əcnəbilərin ölkədə olmasının və yaşamasının leqallaşdırması tədbirlərinin, ümumi olaraq miqrasiya xidmətlərinin xüsusi karantin rejimi çərçivəsində həyata keçirilməsinin ən səmərəli yolu elektron xidmətlərdən geniş istifadə oldu. COVID-19 dövrünün təbii nəticələrindən biri də elektron xidmətlərə olan tələbatın kəskin artması və elektron xidmətlərin daha da təkmilləşdirilməsinə olan ehtiyacın daha açıq ortaya çıxmasıdır. Dövlət Miqrasiya Xidməti tərəfindən pandemiyanın ilk günlərindən əcnəbilərə göstərilən elektron xidmətlər mövcud tələbata uyğunlaşdırılmış və yenilənmiş, həmçinin tələb olunan bütün xidmətlərin elektron qaydada həyata keçirilməsi təmin edilmişdir. Qeyd etmək istərdik ki, elektron xidmətlərə çıxış, həm də Xidmət tərəfindən hələ 2018-ci ildən istifadəyə verilmiş və vətəndaş məmnunluğunun təmin olunmasına yönəlmiş "MigAz" mobil tətbiqi vasitəsilə də mümkündür. Ötən dövr ərzində Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi elektron xidmətlərdən əcnəbilərin rahat istifadəsinin təmini, eləcə də mövcud vəziyyətlə əlaqədar müvafiq prosedurlar barədə ictimaiyyətin vaxtında və dolğun məlumatlandırılması diqqət mərkəzində saxlanılmışdır. Belə ki, elektron xidmətlərdən istifadə qaydaları və Xidmət tərəfindən həyata keçirilən işlərlə bağlı müxtəlif dillərdə maarifləndrici və məlumatlandırıcı vəsaitlər, o cümlədən videotəlimatlar hazırlanmış, sosial şəbəkələr də daxil olmaqla kütləvi informasiya vasitələrində yayımlanaraq hədəf qruplarına çatdırılmışdır. Qeyd edilənlərlə yanaşı, Xidmətin 3 dildə (Azərbaycan, ingilis və rus) 24 saat fasiləsiz fəaliyyət göstərən 919 Çağrı Mərkəzi gücləndirilmiş iş rejiminə keçirilmiş və göstərilən xidmətin daha da təkmilləşdirilməsi məqsədilə funksional imkanlar artırılmışdır. Bu gün də Çağrı Mərkəzi tərəfindən müraciətlər dərhal, zərurət olduqda isə araşdırıldıqdan sonra cavablandırılır, məlumatlandırma və məsləhət xidməti göstərilir, həmçinin şikayətlərin (məlumatların, təkliflərin) qəbulu və yönəldilməsi həyata keçirilir. Çağrı Mərkəzi ölkə xaricindən gələn zənglərə də açıq olmaqla yanaşı, bu dövrdə gücləndirilmiş rejimdə fəalyyətini davam etdirir. Həmçinin, Çağrı Mərkəzi tərəfindən Xidmətin rəsmi internet səhifəsinin "Online bələdçi" xidmətinə, "WhatsApp" əlaqə vasitəsinə və sosial şəbəkə hesablarına fiziki və hüquqi şəxslərdən daxil olmuş müxtəlif məzmunlu müraciətlər cavablandırılır. Maarifləndirmə və məlumatlandırma tədbirləri həyata keçirilərkən Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının Ofisinin 7 aprel 2020-ci il tarixində dərc etdiyi COVID-19 dövründə miqrantların insan hüquqlarına dair Tövsiyəsi də nəzərə alınır.

Pandemiya nəticəsində yaranmış şəraitdə miqrasiya xidmətlərinin göstərilməsində səmərəli idarəçiliyin təmin edilməsi elektron xidmətlərimizin mövcud vəziyyətə sürətli uyğunlaşdırılması, çevik cavab və məlumatlandırma mexanizmlərinin hazırlanması, həmçinin qurumdaxili çevik icra prosesini təmin edən, "sıfır kağız" və "sıfır kontakt" prinsiplərinə əsaslanan elektron sistem ilə mümkün olmuşdur. Nəticə etibarilə müraciət edənlərdən aldığımız müsbət rəylər isə gələcəkdə bu sahəni daha da inkişaf etdirməyimiz üçün bizə əlavə stimul vermişdir.

31 mart 2020-ci il tarixdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı COVID-19 dövründə üzv dövlətlərə qaçqınlar və sığınacaq axtaran şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı əsas ismarıclarını çatdırdı. Burada COVID-19 dövründə sığınacaq verilməsi üçün müraciətlərin qəbulunun dayandırılmaması, hərəkət azadlığına tətbiq edilən məhdudiyyətlərin ixtiyari olmaması və ya hər hansı ayrı-seçkiliyə yol verilməməsi, pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərdə qaçqınların, məcburi köçkünlərin və digər qrupların unudulmaması əsas başlıqlar idi.

Azərbaycanda pandemiya dövründə qaçqın statusu əldə etmək üçün müraciətlər dayandırılmadı. Sığınacaq axtaran şəxslərin müraciətlərinə baxılması təxirə salındı və onlara ölkə ərazisində qalmaq üçün verilən icazələrin müddəti uzadıldı. COVID-19-dan öncə qaçqın statusunun verilməsindən imtina edilən şəxslərin ölkədən çıxması tələb olunmadı və ya onlar məcburi şəkildə saxlama mərkəzlərinə yerləşdirilmədi.

Qaçqınların və sığınacaq axtaran şəxslərin sosial ehtiyaclarını təmin etməsinin çətinliyi nəzərə alınaraq, Dövlət Miqrasiya Xidməti tərəfindən vətəndaş cəmiyyəti institutları, o cümlədən "Miqrasiya Könüllüləri" İctimai Birliyi və digər iştirakçılarla birgə davamlı olan sosial yardım layihələrinin həyata keçirilməsinə başlanıldı. Həssas kateqoriyadan olan insanlara göstərilən yardımlar ölkəmizdə yaşanan həmrəyliyi və tolerantlığı bir daha nümayiş etdirmiş oldu. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında qaçqınlar və sığınacaq axtaran şəxslər üçün tibbi yardım pulsuzdur. Bu qəbildən olan insanların hər hansı digər ehtiyacları yarandıqda, Dövlət Miqrasiya Xidməti digər aidiyyəti dövlət orqanları ilə bu məsələləri əlaqələndirir.

Beynəlxalq Əmək Təşkilatı 30 aprel 2020-ci il tarixdə COVID-19 pandemiyası dövründə əməkçi miqrantların hüquqlarının qorunmasına dair Tövsiyələrini açıqladı. Sənəddə əməkçi miqrantların ən həssas kateqoriyaya aid olduğu göstərilərək onların düzgün məlumatlandırılması, ərzaq təhlükəsizliyinin təminatı, səhiyyə xidmətlərindən bərabər istifadə hüququnun tanınması bildirilmiş, miqrantlara qarşı ayrı-seçkiliyin və ksenofobiyanın artması, işdən qovulma, eləcə də ölkə hüdudlarından kənara çıxarma hallarına xüsusi diqqət yetirilməsi tövsiyə olunmuşdur.

Bildiyiniz kimi Azərbaycanda əməkçi miqrantlar işəgötürənlər tərəfindən alınmış iş icazələri əsasında işləyirlər. Müqayisə üçün qeyd edilməlidir ki, 2020-ci ilin ilk altı ayında 2019-cu ilin eyni dövrü ilə müqayisədə iş icazələrinin alınmasında 16% azalma müşahidə olunmuşdur. Azərbaycanda xüsusi karantin rejiminin tələbləri çərçivəsində bir sıra müəssisələrin fəaliyyətini müvəqqəti dayandırdığı və giriş-çıxışa tətbiq edilən məhdudiyyətin 5 aydan çox davam etdiyi nəzərə alındıqda, bu göstəricinin yaxşı hesab oluna bi-

# Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycan qadınları üçün deyil, beynəlxalq qadın hərəkatı, dünya qadınları üçün də örnəkdir

*YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yap.org.az-a müsahibəsi*

obrazını bütün parametrləri ilə öz şəxsiyyətində təcəssüm etdirən əsil azərbaycan Qadınıdır.

***- Sizin də vurğuladığınız kimi, Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas prinsipləri həm də xeyirxahlıq və humanizmdir. Buna nümunə olaraq onun sosial sahədə gördüyü işləri də qeyd etmək olar.***

Mehriban xanım mərhəmətin, humanizmin, yardımsevərliyin, müasir dövrümüzdə inkişafına təkan verən ən görkəmli şəxsiyyətdir. Bunu birmənalı şəkildə vurğulayıram. Biz sovet dönəminin verdiyi nailiyyətlərin, üstünlüklərini ədalət naminə qeyd etməli, həm də o dövrün bu kimi prosesləri "tormozlayan" məqamlarını da vurğulamalıyıq.

Bilirsiniz ki, sovet dönəmində insanlar arasında və həyat səviyyəsində süni bərabərləşdirmə məhdudiyyətlərlə və kvotalarla müəyyən olunurdu. Və burada hər kəsin fərdi imkanları və istedadından cıxış edərək cəmiyyətə töhfə verməsi tamamilə ideoloji şərtlərə tabe etdirilmişdi. Bu, yalnız icazəli şəkildə, müəyyən çərçivələrdə həyata keçirilə və müvafiq normalarla müəyyənləşdirilə bilərdi.Burada özfəaliyyətə,şəxsi təşəbbüslərə yer yox idi. Odur ki, xalqımız özünə xas olan bu keyfiyyətləri tarixin bütün mərhələlərində qoruyub saxlamış, onu reallaşdırmaq üçün uyğun şərtlərə və mexanizmlərə isə yalnız müstəqilliyimiz bərpa edildikdən sonra malik ola bilmişdir.

Bilirsiniz ki, müstəqilliyimizin bərpası illəri çox acı hadisələrlə müşayiət olundu. Torpaqlarımızın bir qismi işğal olundu, insanlarımız qaçqın - köçkün düşdü, iqtisadi və siyasi böhran nəticəsində ehtiyacı olan təbəqənin sayı dəfələrlə artdı. Ehtiyacı olan yüz minlərlə soydaşımız həm dövlətin, həm də ayrı-ayrı insanların yardımına möhtac bir vəziyyətə düşdülər. Odur ki bu prosesdə bütün imkanları səfərbər etmək, yardımı, qayğını daha effektli təşkil etmək üçün sistemli yanaşmaya, mükəmməl örnəklərə və nümunələrə ehtiyac vardı. Bu tarixi bir həqiqətdir ki,müasir Azərbaycanın ideoloji əsaslarının yaradılması,müstəqil dövlətin qurulması birmənalı şəkildə Ulu öndər Heydər Əliyevin həm sovet dönəmindəki fəaliyyəti ilə həm də müstəqilliyimizin bərpasına həsr olunmuş 10 illik Prezidentliyi dövründə həyata keçirdiyi siyasətə, onun iradəsi ilə qəbul olunmuş qanunlara ,və şəxsən imzaladığı fərman və sərəncamlara bağlıdır.

Bu ideyaların qorunması, daha geniş əhali kütlələrinə çatdırılması, təbliğ və inkişaf etdirilməsi missiyasını isə Heydər Əliyev Fondu yerinə yetirir. Fondun rəhbəri kimi Mehriban xanım həm Heydər Əliyevin müəyyən etdiyi ideoloji xəttin, eyni zamanda humanizmə xeyriyyəçiliyə və konkret insan talelərinə yönəlik layihələrin reallaşmasına bilavasitə rəhbərlik edərək rifah dövləti yaradılmasına böyük töhfələr verən fəaliyyətin müasir nümunəsini yaratmağa nail oldu.

***- Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri olmasından 16 il ötür. YUNESKO və İSESKO-nun xoşməramlı səfiri kimi göstərilən fəaliyyətlə bağlı nə deyə bilərsiniz?***

- Əvvəllər də dünyada YUNESKO və İSESKO-nun xoşməramlı səfirləri vardı. Amma nədənsə Azərbaycanda bu barədə heç danışılmırdı. Ümumiyyətlə, bu səfirlərin missiyası nədir, onlar hansı istiqamətdə fəaliyyət göstərirlər və ya göstərməlidirlər, bu fəaliyyətin nəticələri nədən ibarətdir, biz bu barədə o qədər də məlumatlı deyildik.

Mehriban xanımın fəaliyyəti daha geniş beynəlxalq arenaya çıxdıqdan sonra isə biz də bu sahəyə maraq göstərməyə başladıq.

İndi Azərbaycana yardımların göstərildiyi vaxtlar xeyli arxada qalıb. Ölkəmiz o dərəcədə inkişaf edib ki, biz həm də dünyada ehtiyacı olan insanlara yardım etməyə başladıq. Bununla yanaşı Fondun xətti ilə Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə geniş təbliği layihələri YUNESKO-nun, İSESKO-nun, BMT yanında fəaliyyət göstərən digər qurumların, Azərbaycanın xarici ölkələrdəki missiyaları, səfirlikləri və "Azərbaycan evləri"nin, diaspor təşkilatlarının xətti ilə həyata keçirilən tədbirlər daha çox tərəfdaş və daha çox izləyici topladı.

Belə bir fəaliyyət YUNESKO və İSESKO tərəfindən diqqətsiz qala bilməzdi. Mehriban xanımın rəhbərliyi ilə icra olunan layihələr bu təşkilatların Azərbaycandakı fəaliyyətlərinin miqyasını da genişləndirdi. Onlar Azərbaycana gəldikcə, burada layihələr reallaşdırdıqca, onun nəticələrini gördükcə belə bir şəxsin beynəlxalq miqyasda fəaliyyətinin çox böyük səmərə və fayda verəcəyinə inandılar və təbii ki məmnuniyyətlə Mehriban xanım hər iki təşkilatın xoşməramlı səfiri seçildi. Sizə deməliyəm ki bu fəaliyyət Azərbaycana böyük fayda verməkdədir. Amma həmin təşkilatların fəaliyyəti üçün daha çox fayda verir söyləsəm, yanılmaram. Çünki bu fəaliyyət bir çərçivə yaratdı ki, xoşməramlı səfirlər necə ola bilərlər? O, həm də digər səfirləri, digər ölkələrin və xalqların bu təşkilatlar çərçivəsində fəaliyyət göstərən nümayəndələri üçün standartlar müəyyənləşdirdi. Onların vaxtaşırı Mehriban xanım haqqında söylədikləri fikirlərdə də bu, öz əksini tapır. Mehriban xanımın beynəlxalq aləmdə xoşməramlı fəaliyyətinin nəticələrinə verilən qiymət, ayrı-ayrı ölkələrin ən yüksək orden və medallarına, beynəlxalq təşkilatların ən nüfuzlu mükafatlarına layiq görülməsi onu göstərir ki, bu missiya təkcə Azərbaycana xidmət etmir, bu missiya bütün dünya xalqlarına, dünya mədəniyyətinə xidmət edir. Bu, həm də Azərbaycan xalqının Mehriban xanımın timsalında bəşər mədəniyyətinə verdiyi töhfədir ki, biz bununla qürur duyuruq, fəxr edirik. Ona görə ki, Mehriban xanımın varlığı xeyriyyəçiliyin, humanizmin, yardımsevərliyin daha yüksək zirvələrə qalxmasına şərait yaradır.

***- Bahar xanım müsahibə zamanı belə bir nəticəyə gəldik ki, Mehriban xanımın ölkənin bütün sahələrinin inkişafında rolu misilsizdir. Xüsusən ailə-qadın məsələlərində. Buradan belə bir sual yaranır ki, Mehriban xanım bu qədər işin öhdəsindən necə belə məharətlə gələ bilir?***

- Bu işin ona hansı çətinliklər hansı əmək, zəhmət bahasına başa gəldiyini bir Mehriban xanım bilir ,bir də Tanrı.Bir daha vurguladığım fikrin üzərinə qayıdıram ki, hər kəs həyatda əldə etdiklərini özünün dərk olunmuş məsuliyyətinə borcludur. Bu, mənə imkan verir söyləyim ki, Mehriban xanım hansı işlə məşğul olursa-olsun o, onu dərk olunmuş məsuliyyət olaraq qəbul edir və həyata keçirir. Məsuliyyətini dərk edən insan isə bütün sahələrdəki fəaliyyətini əlaqələndirməyi və hər birinin öhdəsindən gəlməyi bacarır. Əsas odur ki, biz bu fəaliyyət zamanı Mehriban xanımın ailəsi ilə cəmiyyət və dövlət həyatına göstərdiyi xidmətlərin arasındakı o balansı görürük. Deməli, bunun özü də çox gözəl bir örnəkdir. Əgər, biz hansısa ictimai fəaliyyətlə məşğul oluruqsa, ailəmizi unuda bilmərik. Ailə dəyərlərini, bizim ailədəki missiyamızı, övlad qarşısındakı borcumuzu, gələcək nəslə gözəl bir vətəndaş təqdim etməli olduğumuzu unutmamalıyıq. Bu heç də bir fəaliyyətin digərini istisna etməsi anlamına gələ bilməz.Deməli istək, səriştə və məsuliyyətli yanaşma olduğu təqdirdə ən ağır işlərin öhdəsindən gəlmək mümkündür. Ona görə də düşünürəm ki, Azərbaycan qadınları nə siyasi, nə də ki, ictimai həyatdakı çətinliklərdən çəkinməməli, bunun üzərinə çox böyük dəyanət və cəsarətlə getməlidirlər. Çünki bunun üçün bizim həm tarixi həm də müasir örnəklərimiz var.

Bütün bu illər ərzində yaradılmış mükəmməl qanunvericilik, müvafiq icra mexanizmləri, ən əsası cəmiyyətin düşüncəsindəki inqilabi dəyişiklik nəticəsində, tarixən Azərbaycana, İslam dünyasına və bir çox dünya ölkələrinə xas olan qadınların hüquqlarından daha çox onların vəzifələrinə görə yanaşmalara əsaslanan düşüncələr indi artıq arxa plana keçməkdədir.

Bu stereotiplər gözəl nümunələrin qarşısında geriyə çəkilməkdədir. İndi daha çox sayda kişilər düşünməyə başlayır ki, qadınlar cəmiyyət və dövlət həyatının dayaqlarından biridirlər və onların iştirakı cəmiyyət həyatına yalnız harmoniya gətirir, siyasəti daha da zənginləşdirir. Bərabər iştirakçılıq və təmsilçilik məsuliyyətin bərabər bölünməsinə şərait yaradır. Bundan isə həm ailələr, həm də cəmiyyətimiz qazanır. Ona görə düşünürəm ki, bu fəaliyyətin faydalarını biz hələ getdikcə hiss edəcəyik.

***- Biz müsahibədə Mehriban xanımın fəaliyyətinə toxunduq. Onu da qeyd edək ki, Mehriban xanım Əliyeva həm də Yeni Azərbaycan Partiyasının Sədr müavinidir. Bu haqda da fikirləriniz bizə maraqlı olardı.***

- Yeni Azərbaycan Partiyası Ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövləti və dövlətçiliyinin qorunması, inkişafı və bugünkü səviyyəyə çatmasında özünəməxsus rolu və yeri olan mükəmməl və möhtəşəm bir siyasi təşkilatdır. Təsadüfi deyil ki, Ulu öndərimiz YAP-ın dövlətimizin bugünkü və gələcək həyatındakı roluna dair çox dərin inamla danışmış onun Azərbaycan dövlətini irəli aparmaq üçün geniş imkanlara malik olduğunu vurğulamış, üzvlərinə böyük ümid bəslədiyini qeyd etmişdir.

Yaşadığımız həyat da bunu göstərməkdədir. Birmənalı şəkildə partiyanın sıralarında olan insanlar öz imkan və bacarıqlarını bütün həyatını fədakarcasına bu dövlətin qurulmasına həsr edən Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin siyasətinin həyata keçirilməsinə sərf etməkdədirlər. Onlar Azərbaycanın perspektivli gəncləri, fədakar qadınları, bu dövlətin inkişafını həyatının mənası hesab edənlərdir. Odur ki, YAP-ın ətrafında Azərbaycan xalqının ən müxtəlif təbəqələrinin çox saylı nümayəndələri cəmləşərək və Heydər Əliyev ideyalarının reallaşması işinə ciddi töhfələr verməkdədirlər. Uzun illərdir bu təşkilatın iqtidar partiyası statusunu saxlaması, ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi regionun və indi artıq dünyanın güclü partiyaları sırasına daxil olması ilə bağlıdır. Təsadüfi deyildir ki, azərbaycan qadınları siyasi fəaliyyətlə məşğul olmaq istəyərkən də ilk olaraq YAP-a üz tutmuş və onun sıralarında olmağa üstünlük vermişlər. Bu prosesin daha çox qadınları əhatə etməsinə imkan verən faktlardan biri də bu gün Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın partiyanın İdarə Heyətinin üzvü və Sədr müavini olması ilə də şərtlənir. Biz onun partiya sıralarındakı fəaliyyətini yüksək dəyərləndirir və xidmətlərini xüsusi vurğulayırıq.

Onun şəxsində ictimai-siyasi, humanitar və beynəlxalq fəaliyyəti əlaqələndirməyin nümunəsini görən gənc xanımlar bundan cəsarətlənir, öz gələcək həyatlarını, siyasi talelərini bu partiyaya bağlamaq kimi bir qərar verirlər.

Mehriban xanımın partiya həyatına verdiyi töhfələrdən biri də gənclərin bu prosesə daha geniş cəlb olunmasına imkan yaratmasıdır.Belə ki,o, cəmiyyətin daha geniş təbəqələrini öz ətrafına toplaya biləcək kütləvi tədbirlərin təşkilinə yönəlmiş ideyaları ilə siyasi proseslərə ictimai və könüllü fəaliyyəti vasitəsilə qatılmağa gözəl şərait yaradır.

Bəzən gündəlik həyatımızda həddən artıq siyasiləşmiş yanaşmaları,hətta ən adi məsələlərə belə siyasi konyuktura ilə qiymət verilməsi ilə rastlaşırıq. Bu isə gəncliyi çəkindirir, qorxudur. Özünün o çərçivələrə uyğun gəlmədiyini, bu çətinliklərdən keçmək imkanında olmadığını düşünməyə vadar edir. Amma Mehriban xanımın bu istiqamətdə yeni çərçivələr müəyyən etməsi ilə daha çox sayda gəncin, xüsusilə gənc qızların özləri də hiss etmədən siyasi proseslərə qatılmasına şərait yaradır. Onlar YAP könüllüsü olaraq məhz Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən layihələrə qatılmaqla qazandıqları təcrübədən çıxış edərək partiya sıralarına qatılmağa da özlərini hazır bilirlər.

Bir sözlə bu günkü qaynar həyatın bütün sferalarında öz təşəbbüsü ilə müəyyən etdiyi və tarixi taleyinin onun üzərinə qoyduğu çətin və şərəfli missiyasını ləyaqətlə daşıyan Bizim Mehriban Xanımın ictimai,siyasi və humanitar fəaliyyəti hər birimiz üçün örnəkdir.

# Məktəbliləri COVİD-19-dan necə qorumalı?

***Təhsil müəssisələrinin fəaliyyətinin bərpa olunmasının sosial nəticələrinin dəyərləndirilməsi COVID-19 pandemiyası ilə mübarizə kontekstində məktəblərin necə və nə vaxt qismən açılması və ya bağlanması barədə qərarın qəbulu zamanı nəzərə alınmalı olan amillərdən biridir. Bu barədə SİA-ya Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) bildiriblər.***

ÜST, UNICEF, Qızıl Xaç və Qızıl Aypara cəmiyyətlərinin Beynəlxalq Federasiyası məktəblərdə təhlükəsizliyin təmin olunması və uşaqların COVID-19 virusundan müdafiəsi ilə bağlı birgə təlimat dərc edib. Təlimatda məktəblərdə təhlükəsizliyin təmin olunması üçün vəziyyətə nəzarət üzrə anket formaları və vacib tövsiyələr yer alır: "Məktəblərin necə və nə vaxt qismən açılması və ya bağlanması barədə qərarın qəbulu zamanı nəzərə alınmalı olan amillərə məktəbin təkrar açılması/bağlanmasının sosil nəticələrinin qiymətləndirilməsi (məsələn,



şagirdlərin məktəbə qayıtmaması riski, əhalinin təhsil səviyyəsini fərqin artması, ailədaxili zorakılıq və s.) aiddir".

ÜST nümayəndəsinin sözlərinə görə, ÜST və UNICEF pandemiya ilə mübarizə kontekstində uşaqlarına maskadan istifadəsi üzrə tövsiyələr dərc edib:

"Maskalar özü-özlüyündə uşaqları COVID-19-dan qorumasa da, onlar virusun yayılmasının qarşısının alınması üzrə kompleks tədbirlərin hissəsidir".

ÜST və UNICEF-in uşaqların maskadan istifadəsi üzrə tövsiyələri yaşdan və konkret vəziyyətdən asılıdır:

- 5 yaşlı və daha kiçik uşaqlara parça maska taxmaq tövsiyə olunmur;

- 6-11 yaşlı uşaqların virusun çox yayıldığı məkanlarda parça maska taxıb-taxmaması barədə qərar verərkən, böyüklərin müşahidəsi və maskanı təhlükəsiz daşımaq imkanı kimi konkret amilləri nəzərə almaqla risk dəyərləndirməsinə əsaslanan yanaşma tətbiq etmək lazımdır;

- 12 yaşlı və daha böyük uşaqlar virusun çox yayıldığı və fiziki məsafənin mümkün olmadığı məkanlarda maska taxmaqla bağlı böyüklərə aid edilən tövsiyələrə əməl etməlidir;

- Digər xəstəlikləri olan uşaqlar həkimlə məsləhətləşmədən sonra tibbi maska taxmalıdır.

Başa düşmək vacibdir ki, tək maska kifayət deyil, onu digər tədbirlərlə birgə istifadə etmək lazımdır. Uşaqları məsafə saxlamağın, gigiyena qaydalarına əməl etməyin və virusa yoluxmanın qarşısının alınması üçün digər tədbirlərin vacibliyi barədə məlumatlandırmaq lazımdır. Böyüklər uşaqlarla söhbət zamanı bu mövzunu müzakirə etməli və onları maraqlandıran suallara cavab verməlidir.

# Azər Həsrət: "Vətəndaş məsuliyyəti müsbət nəticələrə gətirib çıxarıb"

***"Dövlətimizin davamlı, sistemli şəkildə atdığı addımlar nəticəsində həqiqətən də koronavirusla mübarizə istiqamətində Azərbaycanda müsbət dinamika əldə edilib. Biz xatırlayırıq ki, bir neçə həftə bundan öncə ölkədə aktiv, yəni müalicə altında olan xəstələrin sayı 8 mindən çox idi. Amma bu gün bu rəqəm 2 minin altındadır. Yəni, kifayət qədər böyük irəliləyiş əldə edilib və bu da təsadüfi deyil. Yəni, qeyd edildiyi kimi, atılan sistemli addımların nəticəsində buna nail ola bilmişik." Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.***

Siyasi şərhçinin sözlərinə görə, xüsusi karantin rejiminin uzadılması, eyni zamanda məhdudiyyətlərin tətbiq edilməsi, vətəndaş məsuliyyətinin yüksəldilməsi və təbiidir ki, dövlətin də vətəndaşların sosial problemlərinin həlli istiqamətində atdığı addımlar buna, müsbət nəticələrə gətirib çıxarıb.

"Əlbəttə bizim həkimlərimizin, polislərimizin cəfakeşliyini də ayrıca vurğulamaq lazımdır. Bütün bunlar nəticə etibarı ilə bizim üçün əlverişli bir şərait yaradıb. Belə bir şəraitin qorunub saxlanması və koronavirus dalğasının növbəti mərhələdə daha şiddətli şəkildə boy verməsinin qarşısının alınması üçün məhdudlaşdırıcı tədbirlər hələ də davam etdirilməlidir. Yəni, xüsusi rejimli karantin qaydalarının tətbiqi qaçılmazdır.

Əlbəttə, gediş-gəlişlə bağlı, yaxud da iş yerlərinin açılması ilə bağlı müəyyən yumşalmalar olub və yəqin bundan sonra da olacaq. Amma bunlar onunla müşaiyət olunmalıdır ki, insanlar maska taxmalıdır, məsafəli davranmalıdır, gərəksiz yerə toplanmamalıdır. Xüsusən də məclislərin, mərasimlərin keçirilməsi hələ də yasaq olaraq qalmalıdır. Belə olacağı təqdirdə, bəli, biz o müsbət dinamikanı qoruyub saxlaya biləcəyik və Azərbaycanda yoluxanların, dünyasını dəyişənlərin sayı minimum səviyyədə tutula biləcək.

Hətta dünyanın ən aparıcı ölkələri



müəyyən yumşalmalara getdikdən sonra çox ciddi bir təlatümlə üz-üzə qaldılar. Yəni, Fransa kimi, İspaniya kimi, Almaniya kimi ölkələrdə yoluxanların sayı artdı, Amerika Birləşmiş Ştatlarında fəlakət həddinə çatdı. Hindistanda, Braziliyada həmçinin ümumiyyətlə bu gün çox dəhşətli bir vəziyyət var. ABŞ, Braziliya, Hindistanda artıq yoluxanların sayı milyonlarla, gündəlik yoluxanların da sayı 10 minlərlə ölçülür. Təbii ki, buna müvafiq də dünyasını dəyişənlərin sayı minlərlə artıq ölçülür. Bu ölkələrdə gün ərzində ən azı 1000-1200 nəfər bu xəstəlik səbəbindən vəfat edir. O baxımdan mən düşünürəm ki, Azərbaycan insanı bir qədər də təmkinli, səbrli olmalı, atılan addımları anlayışla qarşılamalı, ümumiyyətlə isə bizim hər birimiz koronavirusla mübarizə proqramlarına dəstək olmalıyıq. Dəstək dedikdə bizdən nə tələb olunur? Heç kim bizdən pul istəmir, çörək istəmir, yaxud da ki, üstün bir cəfakeşlik, fədakarlıq istənilmir. Bizim dövlətimiz sadəcə olaraq, Azərbaycan vətəndaşından məsuliyyətli davranmağı istəyir. Yəni, qeyd etdiyim kimi, kütləvi tədbirlərdən çəkinmək, maska taxmaq, məsafə saxlamaq tələb olunur. Mən düşünürəm ki, insanlar bu məsələlərə, bu tələblərə əməl etsələr, qarşıdakı mövsümdə, yəni, payız, qış ayıarında yoluxmaların sayında artım olmaya bilər. Hətta, mən düşünürəm ki, bu yoluxma həddi daha da aşağı enə bilər. Əks təqdirdə, əlbəttə ki, yeni bir dalğanın gəlməsi qaçılmaz olacaq və o da öz arxasınca çox ciddi sosial problemlər gətirəcək. Yəni, işsizlik məsələsi, insanların qidalanma problemi, təbii ki, başqa xəstəliklərin də daha geniş yayılması və sairə baş verə biləcək. Ona görə düşünürəm ki, insanlarımız bir qədər də səbrlərini, təmkinlərini qorusunlar, dövlətin atacağı istənilən addımı anlayışla qarşılasınlar və əlbəttə ki, bu mərhələni hamımız əl-ələ verib dövlətimizlə birlikdə adlaya bilərik. Əks təqdirdə, məsuliyyətsiz davranacağımız təqdirdə, gərəksiz yerə karantin rejimini tələb edəcəyimiz təqdirdə həm özümüzü, həm əzizlərimizi, həm də bütövlükdə xalqımızı risk altına qoya bilərik", deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

## İyulda ölkəyə gətirilən avtomobillərin sayı açıqlanıb

İyulda Azərbaycana idxal olunan avtomobillərin sayı 4379 ədəd, dəyəri isə 51 milyon 56 min ABŞ dolları olub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəyə gətirilən avtomobillərin 25-i sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi, 4082-si əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitəsi, 270-i yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi, 2-si isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsidir.



## Özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 5100-ə çatıb




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 5100-ə çatıb. Nazirlikdən SİA-ya verilən məlumata görə, onlardan 970 nəfəri əlilliyi olan şəxslər, 659 nəfəri məcburi köçkünlər, 87 nəfəri şəhid ailəsi üzvləri, 78 nəfəri cəzaçəkmə müəssisəsindən azad olunanlar, 57 nəfəri isə ünvanlı sosial yardım alan şəxslərdir. Özünüməşğulluq proqramına cəlb olunan şəxslər hazırkı pandemiya dövrü ilə əlaqədar olaraq təlimlərə cəlb edilmədən onlara aktivlər veriləcək. Lakin xüsusi karantin rejimi bitdikdən sonra onların təlimlərdən faydalanmaları təmin ediləcək. Cari il ərzində 12 min işsiz şəxsin proqrama cəlb edilməsi işləri aparılır.

## Pandemiya dövründə 40 min müəllimə internet paketlər təqdim olunub



Pandemiya dövründə təhsil sistemində elektronlaşma və rəqəmsallaşma çox sürətlə getdi. AZƏRTAC xəbər verir ki, bunu Təhsil naziri Emin Əmrullayev COVID-19 pandemiyası dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı avqustun 27-də keçirilən brifinqdə deyib.

O bildirib ki, aprel və mart ayları ərzində 1 milyon şagird, 100 mindən çox müəllim "Virtual məktəb"ə qoşulub. Özəl şirkətlərlə əldə olunan razılaşmaya əsasən 40 min müəllimə internet paketlər təqdim olunub.

## Azərbaycan iyulda 2,3 milyard dollarlıq ticarət əməliyyatları aparıb




İyulda Azərbaycanda ticarət əməliyyatlarının dəyəri 2 milyard 356 milyon ABŞ dolları olub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, ticarət əməliyyatlarının ümumi dəyərinin 911,2 milyon dolları idxalın, 1 milyard 444,8 milyon dolları isə ixracın payına düşüb.

## Dərslər hansı qaydada keçiriləcək?



İbtidai siniflərin 15 sentyabr tarixdən həftədə 2-3 dəfə dərsə gəlməsini təklif edirik. 5-9, 10 və 11-ci sinif şagirdlərinin dərsləri 15 sentyabrdan onlayn qaydada başlayır. SİA-nın verdiyi məlumata görə, bunu Təhsil naziri Emin Əmrullayev bu gün keçirilən mətbuat konfransında deyib. Nazir bildirib ki, 1 oktyabrdan 5-9-cu siniflərin əyani şəkildə məktəbə gəlməsi, 15 oktyabrdan isə 10 və 11-ci siniflərin məktəbə qayıtması planlaşdırılır. Prosesin mart ayına qədər bu cür davam etdirilməsi nəzərdə tutulur.

# Rəzillik "qəhrəmanı" Paşinyan...

## Bu nə birinci, nə də sonuncudur...

***Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə aciz vəziyyətə düşüb, özü də dünya qarşısında. BBC telekanalında yayımlanan "HardTalk" verilişində qonaq olan Paşinyan aparıcının suallari qarşısında çətin anlar yaşayıb. İngilis dilini yaxşı bilməməsi bir yana, Nikol Paşinyan suallardan yayınmaq, yaxud da əlaqəsiz cavablar verməklə bir daha siyasi səriştəsizliyini, savadsızlığını bir daha nümayiş etdirib. "Ermənistanın Baş Naziri Nikol Paşinyanın BBC telekanalında yayımlanan "HardTalk" verilişinə müsahibəsini ayrıca şərh etmək istəməzdim. Amma burada ilk olaraq tamaşaçı nöqteyi-nəzərindən ədalətli jurnalistikanı, haqlı sualları gördük". Bunu açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.***



H.Hacıyevin fikrincə, qərb jurnalistikasında belə bir deyim var ki, yanlış sual yoxdur, yanlış cavab var: "Düzgün suallara yanlış və təhrif olunmuş, qeyri-peşəkar cavabların şahidi olduq. Müsahibədə çox düzgün və haqlı suallar var idi ki, Ermənistan Azərbaycana qarşı təcavüz törətməsi, Ermənistan hakimiyyətinin Azərbaycan xalqından üzr istəməsi kimi suallar bu qəbildəndir. Bunun ya "hə", ya da "yox" cavabının olduğu konkret deyildi. Ermənistan Respublikasının dövlət səviyyəsində məsuliyyəti var ki, Azərbaycan xalqına qarşı bu kimi cinayətləri törədib. Müsahibə alınan tərəfin qeyri-peşəkarlığı, özünü komik vəziyyətə salması və digər hallar barəsində də əlavə şərhlər vermək istəməzdim. Biz həmin şəxsin bu epizodlarının Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyevlə debata çıxması zamanı da şahidi olmuşduq".

### Küçə "demokratı" Paşinyan siyasi savadsızlığını və diplomatik bacarıqsızlığını mütəmadi nümayiş etdirir

Bəli, vaxtaşırı siyasi savadsızlığını və diplomatik bacarıqsızlığını nümayiş etdirən Ermənistanın baş naziri Nikol Paşinyan BBC telekanalında yayımlanan "HardTalk" verilişində növbəti aciz durumu yaşadı. Bu heç də təəccüb də doğurmur. Çünki küçə "demokratı" Nikol Paşinyanın hakimiyyətə gəldiyi ilk gündən bu günə kimi sərsəm, savadsız və təxribat dolu bəyanatlarla gündəmə gəlməsinin sonu belə olmalıdır: aciz duruma düşmək!. Və onun xüsusilə də, Qarabağ münaqişəsi ilə bağlı çıxışları daxili auditoriyanı ələ almağa hesablansa da, əslində Ermənistanda baş nazir postunda necə savadsız, burnundan qabağı görə bilməyən birinin oturduğunu göstərir.

### <u>Levon Zurabyan:</u> "Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini bilmir, tənzimləmə və aydın siyasət barədə anlayışa sahib deyil"

"Erməni Milli Konqresi"nin üzvü Levon Zurabyan Ermənistanın baş naziri Nikol Paşinyanın BBC-nin "HardTalk" proqramına verdiyi müsahibəni tənqid edərək bildirib ki, müsahibədən aldığı təəssürat çox ağır olub: "Nəhayət Paşinyanın müsahibəsini izlədim. Təəssüratım çox ağır idi. Uğursuz müsahibənin bir neçə səbəbi var - ingilis dilinin qeyri-kafi səviyyəsi, cavabların məzmunu, baş nazirin əvvəlki addımları".

Onun sözlərinə görə, ən üzücü məqam odur ki, N.Paşinyan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini bilmir, tənzimləmə və aydın siyasət barədə anlayışa sahib deyil. Konqres üzvü Ermənistan xarici işlər nazirinin bir neçə ay əvvəl eyni proqram çərçivəsində etdiyi çıxışın da xatırladaraq bildirib: "Nə Zohrab Mnatsakanyan, nə də Paşinyan Qarabağ münaqişəsinin mahiyyətini təqdim etmək fürsətindən istifadə edə bilmədilər".

L.Zurabyan qeyd edib ki, Ermənistanın imici baxımından bu iki müsahibə baş tutmasaydı daha yaxşı olardı.

### BBC Paşinyanı ifşa etməklə...

Bəli, "Erməni Milli Konqresi"nin üzvü Levon Zurabyanını sözünə qüvvət, BBC yaxşı ki, Paşinyan kimiləri Qarabağ münaqişəsinin mahiyyətinin nədən ibarət olduğunu başa saldı, ancaq yenə də anlaya bilmədi. Anlaya da bilməz, çünki anlamaq üçün küçə "demokratı" Paşinyanın savadı, siyasi düşüncəsi olmalıdır, bu isə mümkünsüzdür. Elə avqustun 14-də İngiltərənin BBC telekanalında məşhur "HardTalk" verilişinin aparıcısı Stiven Sakurun Ermənistanın baş naziri Nikol Paşinyanın sualları qarşısında növbəti dəfə aciz duruma düşməsi bunu bir daha sübut edir və adi hal alıb, desək yanılmarıq. Politoloqlar da bildirirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev cənabları ilə beynəlxalq görüşlərdə də ingilis dilində nəinki olduqca zəif danışması bir yana, hər cümləsində ingilis dilinin elementar qrammatik normalarını belə gözləməyən N.Paşinyan Ermənistanın məxməri inqilabdan sonra dünya reytinqlərində demokratiya, insan haqları, iqtisadi inkişaf, antikorrupsiya, məhkəmə islahatı sahələrində ən sürətli inkişaf edən ölkə kimi tanınması barədə cəfəng səslənən iddialar səsləndirməsi, doğurdan da gülüncdən də gülünc durum idi. Paşinyan, həmişə olduğu kimi ölkədəki hazırkı acınacaqlı vəziyyətin bütün günahını yenə də koronavirus pandemiyasının üzərinə cəhd etdi.

Müxbir isə, onun sözünü kəsərək, koronavirus mövzusuna köklənməklə müsahibənin məğzindən uzaqlaşmaq cəhdinin qarşısını aldı. "Siz hakimiyyətə gələndə Azərbaycanla sülh üçün cığırın tapılacağı vədini vermişdiniz, halbuki ötən ay yeni döyüşlər, yeni münaqişə, hər iki tərəfdən hərbçilərin həlak olmasını gördük. Sanki Ermənistan əvvəlki təcrübəsini davam etdirir və vəd edilən dəyişiklik baş vermir?" sualını verdi. Bu sual N.Paşinyanda isterik reaksiya doğurdu. O, beynəlxalq səviyyədə qəbul olunmuş mövcud danışıqlar formatının dəyişdirmək və işğal altındakı Azərbaycan ərazilərində yaradılmış qondarma rejimi münaqişə və danışıqlar tərəfi kimi təqdim etmək istəyini münaqişənin həlli üzrə indiyə qədər görünməyən yeni bir "formula" olduğunu sübut etməyə cəhd etdi.

Lakin müxbir "Əməllər sözlərdən daha çox danışır" ifadəsi işlətməklə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisini artilleriya atəşinə məruz qoymaqda, bir nəfər 76 yaşlı dinc sakini qətlə yetirməkdə ittiham etdi və bildirdi ki, "apardığınız siyasət sülhə nail olmaq məqsədi daşımır" deməklə N.Paşinyanı çətin vəziyyətə saldı.

Qeyd edək ki, N.Paşinyanın Azərbaycanın ünvanına səsləndirmək istədiyi cəfəng ittihamları dinləmək istəməyən S.Sakur isə onun üzünə bu fikirləri səsləndirməkdən çəkinmədi və bildirdi ki, "keçən ilin avqust ayında "Stepanakert"ə (Xankəndiyə) gedərək "Artsax (Siz Dağlıq Qarabağı belə adlandırırsız) Ermənistandır və nöqtə" bəyanatını etdiyiniz? Bundan sonra sizi dinləyən kütlə Ermənistanla birləşməyə dair çağırışlar etməyə başladı. Bu, Azərbaycana qarşı açıq-aydın bir təxribat idi" suala Paşinyan saxta tarixi iddialar səsləndərməklə cavab verməyə çalışsa da, müxbir onun üzünə "Sizin iddia etdiyiniz minillik tarixinizə girməyə niyyətimiz yoxdur. Bizim məqsədimiz hazırkı reallıqlara baxmaqdır. BMT-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən qətnamələr var. Beynəlxalq hüquq çərçivəsində Ermənistan silahlı qüvvələri işğalçı ordudur və siz Dağlıq Qarabağa girərək o ərazinin sizin olduğunu iddia etməyə çalışırsız. Siz açıq-aşkar sülhpərvər deyilsiz" ittihamını vurdu.

Müsahibə zamanı Paşinyan ancaq öz xəyalında formalaşdırdığı cavabı verməklə çətinlikdən çıxmaq istəsə də, həqiqətdən qaçmaq mümkün deyil.

Bundan sonra Paşinyan yenə qeyd edib ki, guya Azərbaycan 90-cı illərin əvvəllərində Qarabağda yaşayan ermənilərə qarşı etnik təmizləmə həyata keçirib və münaqişə bu andan başlayıb. Budur, həyasızlığın 100 faizi. Ermənistan hökumət rəhbərlərinin hər zaman dediyi əzbər yalanları təkrarlayan Nikol Paşinyan da, beləliklə bu sual qarşısında da aciz qalaraq yayınıb.

Göründüyü kimi, nəinki bu müsahibə, ümumiyyətlə küçədən hakimiyyətə gəldiyi bu iki ildən yuxarı fəaliyyəti dövründə Nikol Paşinyanın hələ siyasətçi kimi formalaşmadığını, təcrübəsiz, səriştəsiz, savadsız olduğunu göstərib.

Ancaq hər zaman olduğu kimi Ermənistanın baş naziri N.Paşinyanın məntiqsiz, cəfəngiyyatla, yalanla dolu müdaxiləsi, ölkəmizi ittiham etməsi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən kəskin şəkildə cavablandırılıb. Ən tutarlı məqam isə, Prezident İlham Əliyevin bütün tədbirlərdə həm rus, həm də ingilis dillərində ciddi arqumentlərlə dolu məntiqli çıxışları ilə Nikol Paşinyanın qorxulu kabusuna çevrilməsi idi. Ölkə başçısı bütün mötəbər tədbirlərdə olduğu kimi Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində də Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdiyi məqamı xatırlatmaq istərdim. Əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, bu sammitdə də Azərbaycan Prezidenti Azərbaycanın haqlı mövqeyini ortaya qoyaraq, Ermənistana qarşı diplomatik hücuma keçməklə onların işğalçı siyasətini ifşa etdi: "Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

### Ona görə də, Paşinyan bilməlidir ki, manevrlər ucuz sensasiyalarla tükənəndə...

Bəli, bu böhtanların bədəli böyük olur. Və hələ də erməni xalqı anlamır ki, Ter-Petrosyan hakimiyyətindən tutmuş indiki küçə "demokratı" başıpozuq, xəstə təfəkkürlü Nikol Paşinyana kimi savadsızların uğursuz hakimiyyət "siyasətinin" əziyyətini elə sadə erməni xalqı çəkir. İşğalçı və quduzlaşmış Paşinyan bu günə kimi hansı qələtləri etməyib? "Qarabağ Ermənistanındır, vəssalam!" böyük qələtini edərkən, Azərbaycan Prezidentinin cavabı "NİDA!" oldu və belə də olmalı idi! Ən əsas məqam isə, Nikol bu cavabı nəinki öz ölkəsində, hətta bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsi qarşısında almaqla yanaşı, həm də dünyadakı erməni havadarlarına da bir "düz yola gəlin" mesajı idi və bununla Azərbaycan dövlət başçısı bu məsələni dəfələrlə təkrar çatdırıb: "Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi bütün tərəflər üçün qəbuledilməndir".

Bir sözlə: Paşinyan kimi küçə "demokratı"nın nə qədər təxribat və sərsəm bəyanatlarla çıxış etsə də, reallıq budur: təcavüzkar quduzlaşmış işğalçı Ermənistan zəbt etdiyi torpaqlardan çıxmalıdır, VƏSSALAM, BAŞQA YOL YOXDUR!!!

***A.SƏMƏDOVA***

# "Düşmənin diversiya qrupunun darmadağın edilməsi və erməni zabitin əsir alınması ordumuzun peşəkarlığını göstərir"

***Tovuz hadisələrindən əvvəl də, sonra da Ermənistan tərəfinin diversiya-təxribat qruplarının fəaliyyəti dayanmamaqdadır. Hələ Tovuz istiqamətindən sonra bir-iki istiqamətdə də Ermənistan ordusunun təxribatları müşahidə olunub və bu cəhdlərin qarşısı qətiyyətlə alınıb. Bilirik ki, düşmən atəşkəs rejimini hər gün pozur. Lakin Ermənistan ordusunun bölmələrinə layiqli cavab verilir.***



Bunu AZƏRTAC-a açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. Ş.Ramaldanov bildirib ki, təmas xəttində Azərbaycan Ordusunun bölmələri döyüş tapşırığını daim yüksək səviyyədə yerinə yetirərək xidməti borcunu layiqincə yerinə yetirir. Bu gün təmas xəttində olan bütün bölmələrimiz ən müasir müşahidə vasitələri ilə təchiz edilib. Həmin vasitələr Azərbaycan Ordusunun bölmələrinə Ermənistan silahlı qüvvələrinin bütün hərəkətlərini müşahidə etməyə və qabaqlayıcı tədbirlər görərək düşmənin aktivliyinin qarşısını əvvəlcədən almağa imkan verir.

Belə təxribatlardan biri də avqustun 23-də saat 05:45 radələrində cəbhənin Goranboy rayonu istiqamətində baş verdi. Daha dəqiq desək, Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərdi. Cəbhənin bu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edildi. Döyüş zamanı erməni diversiya qrupunun komandiri, baş leytenant Qurgen Alaverdyan əsir götürülüb. Bu, Tovuz hadisələrindən sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti uğursuz təxribat cəhdidir.

Bu, bir daha onu göstərir ki, Azərbaycan Ordusunun bütün istiqamətlərdə, o cümlədən təmas xəttində yerləşən bölmələri ayıq-sayıqlığını itirmir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Ş.Ramaldanov qeyd edib: "Əlbəttə, düşmən ordusunun zabitinin əsir götürülməsindən sonra biz bilirdik ki, ermənilər iki versiya ortaya çıxaracaqlar. Ya deyəcəklər, o, ağıldan kəmdir, ya da ki, azıb. Ancaq o, hərbi geyimdə və zabit olduğu üçün, əlbəttə, ağıldan kəm olduğunu deyə bilməzlər. Bu durumda ortada erməni zabitin azmış olması variantı qalır. Hərbi cəhətdən təhlil etsək görərik ki, kəşfiyyat-diversiya qruplarının aktiv fəaliyyət göstərdiyi vaxt təxminən gecə saat 3-dən səhər saat 6-ya qədərdir. Adətən bu vaxtı ona görə seçirlər ki, postlarda olan heyətdə müəyyən ayıq-sayıqlıq bir qədər zəifləmiş olsun. Belə halda kəşfiyyat qruplarının fəaliyyətinə və tapşırıqların yerinə yetirməsinə əlverişli şərait yaranmış olur. Bu, faktdır".

Yəni, ona görə bu zabit məhz səhər saat 4-5 arası ələ keçirilib. Ermənilər isə versiya irəli sürürlər ki, Q.Alaverdyan zabit azıb. Bəlkə də o, gənc əsgər olsa idi, demək olardı ki, ərazini yaxşı tanımadığı üçün istiqaməti itirərək azıb və Azərbaycan Ordusunun mövqelərinə gəlib. Ancaq o, zabitdir. Demək olar ki, bir zabit illər ərzində postların bütün xüsusiyyətləri-ni mənimsəmiş olur. Ona görə də bu zabitin azmaq ehtimalı çox azdır və erməni tərəfindən səsləndirilən fərziyyələr həqiqətə uyğun deyil. Həmin qruplar hansısa tapşırıq alıblar və onu yerinə yetirməli olublar. Lakin erməni hərbçiləri elə ilk addımdan uğursuzluğa düçar olublar.

"Ermənilər bu zabitin azaraq bizim mövqelərimizə gəlmə versiyasını niyə ortaya atırlar? Faktiki olaraq düşmənin şəxsi heyəti pərən-pərən olmuş və geriyə çəkilən diversiya qrupunun bir üzvü əsir götürülüb. Erməni tərəfi bu faktı gizlətmək üçün həmişə olduğu kimi, bir müddətdən sonra həlak olanları qeyri-döyüş şəraitində itkilər kimi qələmə verəcəklər. Bu, birinci hal deyil. Təbii ki, bu versiya itkiləri müəyyən dərəcədə cəmiyyətdən gizlətmək üçün ortaya atılacaq. Hər halda kəşfiyyat qrupunun darmadağın edilməsi ilə ermənilər bir daha əmin oldular ki, Azərbaycan Ordusunun hərbçiləri cəbhənin bütün istiqamətlərində ayıq-sayıqlığı itirmirlər və düşmənin istənilən təxribatının qarşısını almağa qadirdirlər. Azərbaycan Ordusunun şəxsi heyəti vəzifə borclarını layiqincə yerinə yetirirlər və Ali Baş Komandanın bütün əmrlərini hər an yerinə yetirməyə hazırdırlar və qadirdirlər", - deyə polkovnik Şair Ramaldanov bildirib.

## Ermənilər Rusiyaya getmək istəyir, Paşinyan qoymur



Ermənistanın hökumət binası qarşısında Rusiyaya getmək istəyən vətəndaşların növbəti etiraz aksiyaları keçirilib. SİA news.am-a istinadən xəbər verir ki, onlar baş nazir Nikol Paşinyandan Rusiya səfirliyi ilə danışıqlar aparmasını və məsələnin həll edilməsini tələb edirlər.

Erməni vətəndaşlardan biri jurnalistlərlə söhbətində bildirib ki, bu gün Rusiya vətəndaşı olan ermənilər Gürcüstan ərazisindən Rusiyaya aparılıblar. "İcazəni səfirlik verib və bizə deyirlər ki, qərar yalnız Rusiya vətəndaşlarına aiddir. Mən soruşuram: nəyə görə, axı burada Ermənistan vətəndaşları da var ki, onların biznesləri mövcuddur, orada onların uşaqları, xəstələri var və hava yolu ilə gələ bilmirlər. Biz istəyirik ki, baş nazirliyin kabinet rəhbəri kömək etsin", ermənilər bildirirlər.

Sayt yazır ki, Ermənistan vətəndaşlarının Rusiyaya girişi yalnız Rusiyaya deyil, eləcə də Gürcüstana girişləri yasaqdır. Rusiyanın Ermənistandakı səfiri zaman-zaman Gürcüstan hakimiyyəti ilə müəyyən razılaşmalar əldə edə bilir, baxmayaraq ki, gürcülərin Moskva ilə diplomatik əlaqələri yoxdur. Lakin Rusiya Federasiyasının erməni mənşəli vətəndaşlarına müəyyən güzəştlər olunur, hətta onların çarter rersyləri ilə də Rusiyaya getmələri mümkün olur.

Qeyd edək ki, koronavirus pandemiyasına görə Rusiya və Gürcüstan Ermənistanla bir sıra əlaqələrini kəsib və ermənilər nə ölkədən çıxa bilir, nə də digər çıxış imkanlarından istifadə edə bilmirlər. Yalnız Rusiya vətəndaşlığı olan ermənilər zaman-zaman müəyyən şərtlər altında Ermənistanı tərk edə bilirlər. Onlar məsələnin həlç edilməməsində baş nazir Nikol Paşinyanı ittiham edirlər və bildirirlər ki, o ermənilərin kütləvi şəkildə Rusiyaya getmələrinin qarşısını müxtəlif üsullarla almağa çalışır.

***Rövşən***

## Avropa iqtisadiyyatı özünü bərpa edə bilmir



Koronavirus pandemiyasına görə davam edən qeyri-müəyyənlik və qorxu Avropa iqtisadiyyatının bərpa templərini zəiflədir. SİA xəbər verir ki, bu barədə "Moody's Investors Service" beynəlxalq reytinq agentliyinin yaydığı məlumatda deyilir. Məlumatda bildirilir ki, Avropanın ən böyük beş iqtisadiyyatının canlanma templəri yavaşlamağa davam edir, çünki son zamanlarda koronavirus hallarının artmasından sonra ehtiyatlılıq və qeyri-müəyyənlik yüksək olaraq qalır.

İstehlakçılar karantin yumşaldıqdan bəri qismən bərpa olunan iqtisadiyyata istehlakçı inamını daha da artıra biləcək iş yerlərində infeksiya və təhlükəsizlik məsələlərində yeni bir artım ehtimalı ilə bağlı qeyri-müəyyənliklərlə üzləşməyə davam edir. Agentliyin vitse-prezidenti Vinsent Allilerin sözlərinə görə, artan ehtiyat xəstəliyin yenidən yayılmasına mane ola bilər, lakin eyni zamanda istehlaka da yenidən mənfi təsir göstərəcək. Onun sözlərinə görə, istehlakçı əhval-ruhiyyəsi aşağı olaraq qalmaqdadır və iqtisadi fəallıq normadan aşağı səviyyədə sabitləşir.

## "Xüsusi karantin rejimi hələ bir müddət davam etməlidir"



"Hər kəsə bəllidir ki, bu gün dünyada 25 miyona yaxın yoluxan var, 830 min nəfər isə vəfat edib. Dünyada yoluxanların sayına görə ilk beşlikdə isə ABŞ, Braziliya, Hindistan, Rusiya və Cənubi Afrika Respublikasıdır. Bu ölkələrdə yoluxanların və ölənlərin sayı ümumi dünya üzrə olan statistikanın təxminən 50 faizini əhatə edirlər. Hətta, Ermənistandan belə vəziyyət kritikdir. Düşmən ölkədə gücdəlik yoluxma 200-300 arasıdır, ölənlərin ümumi sayı isə 900 qədərdir. Yəni, bu statistik analogiya onu göstərir ki, Azərbaycanda koronavirus infeksiyasına qarşı aparılan mübarizə çərçivəsində həyata keçirilən sistemli tədbirlər, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət nəticələr əldə edilib. Bu mənada hazırda ölkəmizdə yoluxanların və vəfat edənlərin sayının azlığına, habelə yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Azərbaycan dövləti infeksiyasının yayıldığı ilk günlərdən vəziyyəti nəzarətə götürüb, genişmiqyaslı tədbirlər həyata keçirməyə başlayıb, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələləri uğurla həll edib: "Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət bir daha göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün bütün vasitələrdən istifadə olunur. Məhz bunun nəticəsində avqustun 5-dən sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılması, məhdudiyyətlərin aradan qaldırılması mümkün oldu. Müxtəlif obyektlər açıldı, cəmiyyətdə münasibətlərdə hərəkətlənmələr sürətləndi. Amma çox təəssüflər olsun ki, bu vəziyyətdən də sui-istifadə edənlər oldu. Qadağan olunduğu halda yenə də toy, nişan, yas mərasimləri təşkil olundu. Beləliklə də, yoluxma ikirəqəmli səviyyəyə düşdüyü halda həmin məsuliyyətsiz addımların nəticəsində yenidən üçrəqəmli səviyyəyə yüksəldi. Ona görə də, bu gün qarşımızda duran ən mühüm vəzifələrdən biri əldə olunmuş uğurun qorunub saxlanması və möhkəmləndirilməsidir. Xüsusilə də, nəzərə almaq lazımdır ki, qarşıdan müxtəlif xəstəliklərin aktivləşdiyi payız və qış mövsümü gəldiyinə görə, bu məsələ xüsusi aktuallıq kəsb edir. Mövsümi xəstəliklər koronavirus bəlasına əlavə təkan verə bilər. O zaman yenidən sərtləşdirməyə getməli olacağıq".

"Beynəlxalq təcrübə göstərir ki, koronavirusla mübarizədə uğur qazanmış və karantin rejimini ləğv etmiş ölkələr sonrakı dövrdə infeksiyanın geniş yayılması nəticəsində yenidən məhdudiyyətləri bərpa etməyə məcbur olublar" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, bu gün İspaniya, Türkiyə, Almaniya, Fransa, İtaliya, Yunanıstan kimi ölkələr yenidən məhdudiyyətlərin tətbiqinə başlayırlar: "Azərbaycanda karantin rejiminin yumşaldılmasından sonra müşahidə olunan mənzərə də məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlərin mərhələli şəkildə həyata keçirilməsinin zəruriliyini göstərdi. Hazırkı dövrdə ölkəmizdə qənaətbəxş dinamikanın olmasına baxmayaraq, mövcud sanitar-epidemioloji vəziyyətin təhlili xüsusi karantin rejiminin uzadılmasına ehtiyac olduğunu göstərir. Yoluxma təhlükəsinin yüksək olduğu Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla, digər 10 rayonun "sarı" zonaya keçirilməsi mümkündür. Uzun müddətdir bu rayonlarda yoluxma faktlarının aşağı səviyyədə olması buna tam şərait yaradır. Həmçinin sanitar-epidemoloji vəziyyətdən asılı olaraq və ciddi nəzarət mexanizmi tətbiq edilməklə qadağaların tətbiq olunduğu bir sıra sahələrdə - tədris, repetitor xidmətləri və s. məhdudiyyətlərin aradan qaldırılması mümkündür. Eyni zamanda, Azərbaycan dövləti qarşıdan gələn dövrdə əhalinin sosial tələbatlarını qarşılanması, iqtisadi stabilliyin qorunması və əhalinin sosial problemlərinin həlli üçün əlavə tədbirlər görmək gücündədir. Ona görə də bütün bu səbəbləri və reallıqları nəzərə alaraq yoluxma hallarının artım dinamikasına yol verilməməsi üçün xüsusi karantin rejimi hələ bir müddət davam etməlidir. Vətəndaşlar COVİD-19-un müalicəsi üçün vaksin tapılmayana kimi mümkün qədər məsuliyyətli davranmalı, maksimum özümüzü və ətrafımızı qorumağa davam etməliyik. Çünki biz özümüzü və bir-birimizi qorumasaq, əldə olunan nailiyyətləri qoruyub saxlamasaq, sonradan tapılacaq vaksin də köməyimizə çatmaya bilər".

# Əli Kərimlinin təhlükəli Qarabağ planı

***Xatırlayırsınızsa, bir neçə gün əvvəl "Milli Şura"nın sədri Cəmil Həsənli xalqımızın mütləq əksəriyyətinin-Azərbaycanda Türkiyə hərbi bazasının qurulması arzusuna qarşı çıxaraq, bəyan etmişdi ki, "Azərbaycanın ərazisində hansısa hərbi bazanın olması məqsədəuyğun deyil". Özünü xalq kütlələrinin "iradəsinin ifadəçisi" elan edən bir qurumun sədrinin belə mövqe sərgiləməsi cəmiyyətdə şok effekti yaratdı. Bir tərəfdən "ana müxalifətin" vuran əli, əsas "intellektual dəstəsi" olan siyasi bloqgerlər türk əsgərinin Azərbaycanda qalması üçün Türkiyə səfirliyi qarşısında avqustun 14-də, "getmə, qal" fəryadı qoparmağa çalışır və tədbirin zəif alındığını görüb, "görüş yerini" dəyişmədən, avqustun 21-nə yeni mitinq təyin edir, digər tərəfdən onların gecə-gündüz heyranlıqla təbliğ etdikləri liderləri tədbiri pozmaq üçün son dərəcə yanlış bəyanatlar verirdilər.***



Həmin vaxt C.Həsənlinin yanlış bəyanatı barədə yazmışdım ki, "İndi növbə "Milli Şura"nın həqiqi liderləri Ə.Kərimlidə və G.Hacıbəylidədir. Onlar bu barədə nəsə deyəcəklərmi? İnanmıram. Çünki, hərbi bazanın əleyhdarı olduqlarını desələr, dünənə qədər bəslədikləri "söyüş batalyonu"nun qəzəbinə tuş gələcək və onların "əzib, keçərik" bəyanatının boş hədə-qorxu olmadığını görəcəklər. Əgər tərəfdar olduqlarını söyləsələr C.Həsənlinin olmayan nüfuzu, "möhtəşəm" xarizması yerlə bir olacaq və o, məşhur filmdəki təhqir olunan bəy ədası ilə "mən bu məclisdə durmaram"-deyib, "Milli Şura"nı tərk edəcək. Onsuz da kifayət qədər seyrəkləşən Şura ağır sınaq qarşısındadır. S.Osmanqızı düşərgə dostlarını çıxılmaz vəziyyətə saldı".

Hər şey güman etdiyimiz kimi oldu.

"Milli Şura"da ictimai rəyə hamıdan həssas olan G.Hacıbəyli bu mövzuda danışmaqdan yayındı və susmağa üstünlük verdi. Əvəzində Ə.Kərimli danışdı və gözlənilməz bəyanatlar verdi. Avqustun 18-də Osmanqızı tv-yə müsahibə verən AXCP sədri S.Osmanqızının-"Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlıq necə olmalıdır(yeri gəlmişkən aparıcı bu dəfə sualı birmənalı şəkildə-Azərbaycanda Türkiyənin hərbi bazası olmalıdırmı- qoymadı və Ə.Kərimliyə qəti cavabdan yayınmaq imkanı verdi) sualına cavab verərkən dedi: "Baxıb görürəm, xeyli adam doğrudanda belə ruhlanıb ki, Türkiyə ordusu gələcək və Qarabağı azad eləyəcək. Belə düşünmək olmaz axı? ...Nə olub bizə? 10 milyonluq ölkəyik. Bizim heysiyyatımıza toxunmur ki, biz 3 milyonluq Ermənistandan öz torpaqlarımızı azad eləyə bilməyək? Türkiyə gəlib bizim torpaqlarımızı azad eləsin? Türkiyənin bizim çiynimizdə (yəqin arxamızda demək istəyir-A.S.) dayanması 3-cü qüvvələr üçündür ki, əgər Ermənistanın himayəsində (Bu da təzə xəbərdir. Demə Rusiya Ermənistanın himayəsində imiş-A.S.) duran dostu varsa, Azərbaycanın da dostu var".

Beləcə, Ə.Kərimli həm xalqımızı "heysiyyatlı olmağa" çağırdı, həm də C.Həsənlinin "Azərbaycanın ərazisində hansısa hərbi bazanın olması məqsədəuyğun deyil", - mövqeyinə dolayı dəstək verdi.

Belə vəziyyətdə təbii sual yaranır: AXC-Musavat iqtidarının aparıcı şəxslərindən biri olan Ə.Kərimli nədən 12 iyun 1992-ci il tarixdən başlayaraq hücum əməliyyatlarını aparmaq üçün Gəncədəki desant diviziyasına "kisə-kisə pullar daşınanda" və rusların hesabına Xankəndinin və Laçının yaxınlığına gəlib çıxanda "milli heysiyyat" məsələsini silahdaşlarına xatırlatmamışdı və o zaman " torpaqlarımızı özümüz azad etməliyik"-deyib, haray salmamışdı?

Digər tərəfdən, biz heç vaxt ermənilərlə təkbətək vuruşmaq imkanına malik olmamışıq və torpaqlarımızı da ermənilər işğal etməyib ki, müxalifətin "nəhəng liderləri" bizim "10, ermənilərin 3 milyon olduğunu" başımıza qaxınc eləyib, bizi utandırmağa çalışsınlar.

Anlaya bilməmişsinizsə bir daha izah edirik. Xalqımızın "Azərbaycanda Türkiyə hərbi bazası olmalıdır"- tələbi hərbi qarşıdurmada bərabər şərtlər yaratmaq istəyinə xidmət edir. Sizlərdən fərqli olaraq sadə insanlar anlayırlar ki, əgər Ermənistanda 10 minə yaxın rus hərbçisi və yüksək səviyyədə silahlanmış hərbi bazası varsa, 10-15 günlük birgə hərbi təlimlər keçirməklə onun qarşısında dayanmaq, "sən də qarışma, mən də qarışmayım"-nəticəsinə nail olmaq mümkünsüzdür. Üstəlik hərbi bazanın olmaması münasibətlərimizin səviyyəsini Türkiyədə hakimiyyətdə olan şəxslərdən maksimum asılı vəziyyətə salır. Bu gün Ərdoğan komandasının tutduğu qətiyyətli mövqeyi gələcək iqtidarlar tutacaqlarmı?

Unutmusunuzsa, Kəlbəcərin işğalından sonra düşdüyünüz vəziyyəti sizə xatırlatmaq məcburiyyətindəyəm.

Həmin vaxt Prezident Ə. Elçibəyin tapşırığı ilə cəfakeş Baş naziriniz Pənah Hüseynov vəziyyəti düzəltmək məqsədilə aprelin əvvəllərində Moskvada, Tehranda və Ankarada görüşlər keçirmişdi. Səfər zamanı müəyyən addımlar atılsa da (Türkiyə hərbi hissələrinin Ermənistan sərhəddinə yaxınlaşması) əsas məqsədə nail olmaq, Prezident Ə. Elçibəyin hərbi yardım barədə xahişlərinə müsbət cavab almaq, erməniləri işğal etdikləri ərazidən çıxarmaq mümkün olmamışdı. Bu barədə sabiq Baş nazir yazırdı: "Mən Tehranda və Ankarada olaraq Türkiyə və İranın hərbi və siyasi rəhbərliyinin ən yüksək səviyyələrdə nümayəndələri ilə danışıqlar apardım. O cümlədən hər iki ölkənin Prezidentləri ilə təkbətək söhbətlərim oldu.

Prezidentin yardım müraciətlərini, vəziyyətimiz haqqında, həmçinin Rusiyanın mövqeyi haqqında məlumat verdim. Hər iki ölkə rəhbərliyi konkret təcili yardım barədə göstərişlər verməklə yanaşı, anlatdılar ki, bu yardımın keçilməsi mümkün olmayan hüdudu var. Mənim "biz Ermənistanla döyüşə bilərik, ancaq Ermənistan və Rusiya ilə yox" sözlərimə isə müvafiq formada cavab verildi ki, Rusiya ilə razılığa gəlmək lazımdır".

Xatırladınızmı? Siz əminsinizmi ki, yaxın vaxtlarda Türkiyədə hakimiyyətə Elçibəyə bir vertolyot belə vermək istəməyən növbəti S.Dəmirəl gəlməyəcək və Azərbaycan sizin hakimiyyətiniz dövründə düşdüyü vəziyyətlə bir daha üzləşməyəcək? Şübhə etmirəm ki, bu məsələləri siz yaxşı anlayırsınız. Bəs, nədən xalqın istəyinin əleyhinə bəyanatlar verirsiniz?

Çünki, xaricdən, Türkiyənin nüfuzunun və təsirinin artmasını istəməyən dairələr tərəfindən verilən tapşırıq belədir və siz onların sifarişlərini icra etmək məcburiyyətindəsiniz. Əgər belə olmasaydı o qurama müsahibənizdə münaqişənin illərlə uzanmasına və yeni torpaq itkilərinə gətirib çıxaracaq bu dəhşətli fikirləri səsləndirməzdiniz: "Mən bunu açıq ifadə eləyim ki, böyük savaşların əslində vaxtı keçib. İndi hər iki tərəf çox böyük silah arsenalı alıb.İndi böyük bir müharibə çox böyük itkilər deməkdir. İndi Azərbaycanın o qədər problemi var ki, indi biz əslində bilirsiz kursu nəyə götürməliyik. Biz Azərbaycanı xilas eləyib, demokratikləşdirib, Cənubi Qafqaz, bütövlükdə hamımız Avropa birliyinə inteqrasiya xətti götürməliyik. Rusiyanın münaqişəni davam və idarə etmək imkanları tükənməlidir. Ondan sonra Avropa birliyinin həmin o zontikinin altında, moderatorluğu altında ərazi bütövlüyü şərtilə bu problemlər öz həllini tapacaq".

Ə.Kərimli xaricdən ötürüldüyü şübhə doğurmayan bu fikirləri söyləyərkən görəsən Rusiyanın münaqişəni davam və idarə etmək imkanlarının nə vaxt tükənəcəyini, onun "for-post"u olan Ermənistanın bu asılılıqdan neçə ilə qurtara biləcəyini düşündümü? Avropaya inteqrasiya xətti tutan Ukrayna və Gürcüstanın bu zaman nə qədər torpaq itkisinə məruz qaldığını və avropa liderlərinin tutduğu qorxaq mövqeyi xatırladımı? Təbii ki, düşünmədi və xatırlamadı. Çünki, onun işi düşünmək və xatırlamaq deyil. Onu işi tapşırılanları səsləndirmək və icra etməkdir. İcrası yaxşı halda ən azı 30-40 il çəkəcək son tapşırıqlar isə belədir:

Türkiyənin Azərbaycanda hərbi bazası olmamalıdır, çünki, bu Azərbaycanı gücləndirər, Türkiyənin nüfuzunu daha da artıra bilər.

Münaqişə hərbi əməliyyatlar aparılmadan, statuc-kvonu dəyişdirmədən yalnız danışıqlar yolu ilə, Avropa birliyinin zontiki altında aradan qaldırıla bilər.

Bu məqsədə nail olmaq üçün Azərbaycan "xilas edilməli"(hakimiyyət dəyişməli),demokratikləşməli və demokrat Paşinyanın Ermənistanı ilə birlikdə Avropaya inteqrasiya olunmalıdır.

İnanıram ki, xalqımız, ilk növbədə cəbhəçilər və musavatçılar münaqişənin illərlə uzanmasına və yeni ərazilərimizin işğalına gətirib çıxaracaq bu dəhşətli plana qarşı qətiyyətli mövqe tutacaq, Azərbaycana düşmən olan dairələrin məkrli planlarını pozmaq üçün əllərindən gələni edəcəklər.

***Abutalıb Səmədov***
***Azərbaycan Naminə Alyans partiyasının sədri***



## İlqar Orucov: "Müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur"

***Müxalifət düşərgəsində, mövcud anormal mühitin özəlliklərindən biri də qüsurlu fəaliyyətlərinə görə tutduqları vəzifədən uzaqlaşdırılan şəxslərə qucaq açmaları və onları öz sıralarına qəbul etmələridir. Hətta müəyyən məsələlərdə təxribatlar aparmaq üçün onlara sahələr ayırırlar. Misal olaraq, Gültəkin Hacıbəylinin, Əli İnsanovun və digərlərinin müxaliflərlə əlaqələr qurmalarını göstərmək olar.***

AGAAMC-nin sədri, fəlsəfə doktoru, İlqar Orucov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, bəzi şəxslər vəzifədən uzaqlaşdırılandan sonra müxalifət düşərgəsində onlara sanki yeni bir sevgi yaranır: "Vaxtilə müxalifəti ən sərt şəkildə tənqid və təhqir edən şəxslər belə, hakimiyyətdə təmsil olunduqları zaman müxtəlif cinayətlərə, xəyanətlərə görə vəzifələrindən kənarlaşdırılandan sonra onlara qarşı müxalifətdə çox fərqli bir mövqe ortaya qoyulur, onlar sanki qəhrəmanmış kimi təqdim olunurlar. Bunu konkret olaraq Əli İnsanovun, Gültəkin Hacıbəylinin timsalında görmək olar və bu kimi şəxslərə münasibətdə müxalifətin mövqeyi birmənalı olaraq, 180 dərəcə dəyişir".

İlqar Orucov onu da bildirdi ki, dağıdıcı müxalifət üçün nə bir siyasi əxlaq və siyasi baxış, eləcə də əqidə yoxdur: "Necə ola bilər ki, dünənə kimi bu şəxslər sənə düşmən kimi baxırdı və bu gün onlar hakimiyyətdəki mövqeyini itirəndən sonra, konkret olaraq cinayət əməlinə görə artıq onunla bağlı tədbir görüləndə sən bunu qəhraman obrazında xalqa təqdim edirsən və utanmadan onunla oturub bir masada əyləşib fikir mübadiləsi edirsən. Görünən budur ki, məhz müxalifət Azərbaycan reallığında özünə müxalifət deyən, əslində bir qrup radikal insanlardan ibarət bu toplum nə istədiyini bilmir. Bir sözlə, dünənə qədər həmin şəxsi hakimiyyətdə korrupsiya və digər məsələlərdə ittiham edir və sonradan həmin şəxs konkret əməlinə görə işindən azad olunur, yaxud həbsə düşür, sonra vaxtı ilə sənin düşmən gözündə gördüyün şəxsi sənə çox yaxın bir insan kimi təqdim edir, bu da onu göstərir ki, müxalifətdə siyasi əqidə yoxdur. Demək olar ki, bunlar üçün kim olursa-olsun, yalnız və yalnız bu hakimiyyətə qarşı narazılığı olsun. Ümumiyyətlə, bu gün xalq adları çəkilən şəxsləri çox yaxşı tanıyır. Bir sözlə, müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur".

***Gülyana***

# Əli Kərimli, Nigar Həzi və cəbhəçi trollar məhkəməyə təzyiq göstərirlər

**YAP GB: "Onların sosial şəbəkələrdə məhkəmə prosesini siyasiləşdirməsi əməlləri cinayət işinin obyektiv araşdırılmasına və hökmün verilməsinə təzyiqdir, çox güman ki, hüquq-mühafizə orqanları, məhkəmə bu işlə məşğul olacaq"**

YAP-ın Gənclər Birliyinin (GB) Sosial media qrupunun rəhbəri Ramil Vəlibəyov AXCP sədri Əli Kərimlinin göstərişi ilə Tofiq Yaqublunun məhkəməsinə edilən təzyiqləri, şahidlərin təhqir olunması əməliyyatını ifşa edən status paylaşıb. SİA ifşaedici yazını izahlı olaraq oxucuların diqqətinə çatdırır.

"Bildiyiniz kimi, siyasi mövqeyi və partiyalılığı bəlli olmayan, saxta veteran yarlıqı ilə Əli Kərimlinin trolluğunu edən, Şamaxıda hansı vəziyyətdə vəfat edən qızını yaddan çıxarıb sosial şəbəkələrdə müəllimləri, həkimləri pozğun deyə təhqir edən çapulcu Tofiq Yaqublunun törətdiyi cinayəti üzrə məhkəmə prosesi gedir", xatırladan YAP GB-nin sosial media qrupunun rəhbəri qeyd edib ki, hər gün məhkəmə prosesindən əvvəl və sonra Əli Kərimlidən tutmuş qızı Nigar Həziyə qədər kameralar qarşısında konsert verilir, hətta məhkəmədə iştirak edən şahidləri çəkib təhqir və təzyiqlər edirlər. SİTAT: "Əlbəttə ki, onların sosial şəbəkələrdə məhkəmə prosesini siyasiləşdirməsi əməlləri cinayət işinin obyektiv araşdırılmasına və hökmün verilməsinə təzyiqdir, çox güman ki, hüquq-mühafizə orqanları, məhkəmə bu işlə məşğul olacaq. Amma məsələnin çox maraqlı tərəfi odur ki, Əli Kərimli başda olmaqla Tofiq Yaqublunun ailəsi şahidlərin şəkillərini, videolarını sosial şəbəkələrdə yayır və onları məqsədli şəkildə təhqir etdirirlər".

**"Axı alın təri ilə bazarda işləyib çörək pulu qazanan sadə bir vətəndaşı - ana və oğulun necə şərəf və ləyaqətini alçaltmaq olar?"**

Bu kimi halların AXCP sədri və trolları tərəfindən ilk dəfə deyil törədildiyini xatırladan YAP GB-nin səhifəsində o da bildirilir ki, bənzər vəziyyət bir çox insanların başına gətirilib: "Doğrudur, çox tanış mənzərədir. Bir çox insanın başına gəlib. Amma sadə bir vətəndaşın bu hala salınması hər kəsi hiddətləndirir. Axı alın təri ilə bazarda işləyib çörək pulu qazanan sadə bir vətəndaşı - ana və oğulun necə şərəf və ləyaqətini alçaltmaq olar? Bu, hansı mənəviyyata, əxlaqa sığar axı?

Birinci şəklə diqqətlə baxın. Ana və oğul hansı formada təhqir olunur. Hətta subliminal çağırış da var ki, 3-5 cəbhəçi sabah insanların içində onları təhqir və şahidlikdən imtina etməyə məcbur etsinlər. İkinci şəklə də diqqətlə baxın. Nigar Həzi və atası Tofiq Yaqublu 15 yaşlı oğlana şərəfsiz deyirlər. Axı nə üçün? Onlar şahiddirlər, ona görəmi? Onlar Tofiq Yaqublunun cinayət əməlinin şahidi olublar, ona görəmi? Onlar Tofiq Yaqublunun sadə insanları vintaçanla yaralamasını görüblər, ona görəmi? Sabah həmin şəkilləri paylaşılan şəxslər təhqirlərə dözməyib intihar etsələr, o zaman kimdir günahkar? Məsuliyyət kimin üzərində olacaq? Əlbəttə ki, ilk növbədə Əli Kərimlinin və Nigar Həzinin".

**"Başda Əli Kərimli olmaqla cəbhəçilərin və Tofiq Yaqublunun ailə üzvlərinin şouları, məhkəməyə təzyiqləri Tofiq Yaqublunun cinayət törətməsi haqqında fikirləri daha da qətiləşdirmirmi?"**

"Axı hansı səbəbə görə Tofiq Yaqublu törətdiyi cinayətin cəzasını çəkməməlidir" - sualı edilən yazıda digər suallar da irəli sürülür: "O niyə cinayət törədib, əlini-qolunu sallayıb gəzməlidir? Başda Əli Kərimli olmaqla cəbhəçilərin və Tofiq Yaqublunun ailə üzvlərinin şouları, məhkəməyə təzyiqləri Tofiq Yaqublunun cinayət törətməsi haqqında fikirləri daha da qətiləşdirmirmi? Bəs, niyə Nigar Həzi cəzalandırılmır? Axı bu, sadə vətəndaşa qarşı mənəvi hücumdur. Cinayət Məcəlləsinin 147 və 148-ci maddələrinə əsasən, insanların şərəf və ləyaqətləri təhqir olunur, alçaldılır. Niyə hansısa çapulcunun ailə üzvləri məhkəmə prosesinə təzyiq etməlidir, insanları təhqir etməlidir, lakin cəzasız qalmalıdır?


Azadlıq Qəzeti
1h
Tanıyın - Tofiq Yaqublunun üzünə duran yalançı şahidlər
Yalançı şahid olaraq Tofiq Yaqublunun üzünə duran bu adamları tanıyın. Qadının adı Gülqələmdi. Oğlan isə onun oğlu Rövşəndir. 8-ci km. bazarında alt paltarı, corab və s. satır Gülqələm. Qarabağ qazisinin üzünə haqsız yerə duran bu adamlardan uzaq durun, onlara salam verməyin, onlardan nəsə almayın.

Azadlıq Qəzeti
1 saat
15 yaşlı uşağı da Tofiq Yaqublunun üzünə qoydular
Tofiq bəyin qızı Nigar Həzi yazır:
Bu şəkildə gördüyünüz uşağın adı Mirzəyev İsmayıl Tom oğludur. Bu il 10-cu sinif şagirdi olacaq. [redacted] Bu cavan oğlan iddia edir ki, Tofiq Yaqublunun Elxan Cəbrayılovu "döydüyünü" görüb. Hətta görüb ki, T.Yaqublu Elxanla "dalaşmadan" əvvəl telefonla çəkiliş edib. [redacted]
T. Yaqublu: "Gələcəyin bir Elxan Cəbrayılovu da bu olacaq. Hakimiyyət bu illər ərzində yekə kişilərə şərəfsizliyi öyrətdi, indi yetkinlik yaşına çatmayan uşaqları şərəfsiz kimi böyüdürlər".

Bu cür hərəkətlər ictimaiyyətdə hiddət doğurur. Niyə cəbhəçilər qanun tanımır? Onlar istədiyi insanı təhqir edəcək, vuracaq, döyəcək, öldürəcək, amma sosial şəbəkələr təzyiqi vasitəsilə azadlıqda qalacaq? Yaxud da ki, hansısa Əli Kərimlinin trolu məhkəməyə düşəcək, lakin sosial şəbəkələr vasitəsilə hakimin, şahidin şəkilləri yayılacaq və məhkəmə prosesinə təzyiq ediləcək, o da cəzadan yaxasını qurtaracaq?"

**"Əgər bu gün bu cəbhəçilərə, radikallara qanunun aliliyini nümayiş etdirməsək, onlar sabah daha böyük cinayətə əl atacaqlar"**

YAP GB-nin sosial qrupunun rəhbəri ümid etdiklərini bildiriblər ki, əgər kimlərsə məhkəməyə təzyiq edirlərsə, şantaj və böhtan atırlarsa, insanları təhqir obyektinə çevirirlərsə buna görə qanun qarşısında cavab verməlidirlər. Əks halda radikalların ayaqları yer alacaq və daha qatı cinayətlərə, təhqirlərə getmək üçün çalışacaqlar: "Ümid edirəm ki, aidiyyatı qurumlar bu məsələyə münasibət bildirəcək, qanun çərçivəsində həmin şantajçıların dərsi veriləcək. Əgər bu gün bu cəbhəçilərə, radikallara qanunun aliliyini nümayiş etdirməsək, onlar sabah daha böyük cinayətə əl atacaqlar. Hətta, bir gün onları qəbul etməyən insanları kütləvi şəkildə linç etməyə, xalqı alçaltmağa başlayacaqlar..."

***Rövşən***

# İqtidarın uğuru - radikalların iç üzü...

*Tarix unudulmur - hər kəs etdiyi əməllərin cəzasını çəkəcək...*



Tarixi faktları saxtalaşdırmaq olmaz. Xalqımız 2003-cü ildən bu günə kimi "müxalifət" deyilən qurumun hansı məqsədlərə və kimlərə qulluq etdiklərini, ən əsası isə satqınçılıqlarını bilirdi. Bu gün son 17 ildə Azərbaycan Prezidentinin öz xalqına göstərdiyi qayğı və bütün dünyanı ağuşuna alan koronavirusa qarşı mübarizədə ancaq vətəndaşların sağlamlığının prioritet olduğunu deyərək dövlət başçımız "Biz birlikdə güclüyük!" şüarı ilə bütün uğurlu addımları atdığını xalqımız görür və öz Liderinə inanır. Prezidentimizin istər siyasi, istər iqtisadi, istərsə də xarici siyasət sahəsindəki bu uğurları isə müxalifəti təşvişə salıb.

Radikal fikirli, "görkəmli hüquqşünas", "millət fədaisi" satılıb-satan Əli Kərimli, öz savadsızlıqları və səviyyəsizlikləri ilə seçilən mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid və kökü, mənəviyyatı erməni xisləti, erməni təxribatına qahmar çıxan Sevinc Osmanqızı, satqınlığını hər cür formada nümayiş etdirən Arif Məmmədov, "Yurd" şefinin "traypka"sı olan Cəmil Həsənli, özünü "Milli Şura"nın "primadonnası" adlandıran Gültəkin Hacıbəyli, "hüquq müdafiəçisi" Vidadi İskəndərli və bu kimi xalqın düşmənləri usanmaq bilmədən təcavüzkar ölkənin özləri kimi başı boş, savadsız Ermənistanın baş naziri Nikol Paşinyanın müdafiə edən çıxışlar etməsinə nə ad vermək olar? Vicdansızlıq və nankorluq! Bir də, taylıtayın tapar. Bu satqınların mənəvi deqrodasiyaya uğradıqlarıyla yanaşı, etnososioloji varlıq olaraq erməniləşdiklərini, tarixi düşmənlərimizlə eyni mental xüsusiyyətləri paylaşdıqlarını ortaya qoyurlar.

**Hər kəs etdiyi əməllərin cəzasını çəkəcək...**

Özü də xalqın qarşısında. 27 il "müxalifətdəyəm" deyənlərin əqidəsi, məsləki, satqınlığı, əxlaqsızlığını zaman, özü də dünyanı ağuşuna alan koronavirusun baş aldığı bir dövrdə elə üzə çıxarır ki, virus qalır bir yana, AXCP-nin Rəyasət Heyətinin "zoom iclasları" ilə Ə.Kərimli başda olmaqla nəinki müxalifəti, bütün insanları aşılamaqla bir daha əsl simalarını göstərirlər. Bu gün yenidən təcavüzkar Ermənistanın törətdiyi təxribatlarına həmişə dəstək verən radikal müxalifət, xüsusilə də AXCP sədri Ə. Kərimli, gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Arif Məmmədov ...kimilər necə ki, iş çətinə düşən kimi, "dövlətin yanındayıq", vəziyyət stabilləşən kimiolurlar iblis. Çünki istər dələduzlar yuvası olan "Milli Şura", istər "beşinci kalon"un cinayətkar virusları anlamalıdırlar ki, indi ötən əsrin 90-cı illərin əvvəlləri deyil ki...Elə zənn etdiniz ki, 90-cı illərdir və Azərbaycan Ordusu ilə rəşadətli əsgərlərimiz işğalçı Ermənistanın iyulun 12-də etdiyi təxribata görə həmişə olduğu kimi, bu dəfə də əməli-başlı dərsini verdi və yerində otuzdurdu. Bu qələbəni qeyd edən xalqımızın sevincini altüst etmək istəyən Ə. Kərimli və onun kimi bütün mənliyini satan bir qrup Bakının küçələrində iğtişaş yaratmaları, Milli Məclisin binasına girərək vandallıq törətmələr, polislərə qarşı zor tətbiq etmələri təkcə qanunlarımıza zidd deyildi. Bu, ilk növbədə son döyüşlərdə şəhid olan hərbiçilərimizin ruhuna hörmətsizlik idi. Bu vicdansız və əxlaqsızlar bunu anlaya bilməzlər. Anladıqları o idi ki, ölkədə 90-cı illərin rüzgarlarını əsdirməyə cəhd etmək idi. Həmin dövrdə yaşanan gərgin hadisələr, anarxiya, özbaşınalıq və xaos yaddaşlara əbədi həkk olunub.

***Rəfiqə HÜSEYNOVA***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# "Beşinci kolon" məsələsi və xəyanətin aqibəti

Hələ də müzakirə edilən məşhur toy qalmaqalının ardınca "Beşinci kolon" mövzusu yenidən gündəmə gəlib və nə qədər acı təəssüf hissi yaratsa da deməliyik ki, vaxtilə "hakimiyyətə sədaqət" andı içmiş birilərinin paxırları, gizlinləri yavaş-yavaş üzə çıxmağa başlayır. "Dövlətimə və dövlətçiliyimə bağlıyam...", "heç vaxt xəyanət etməmişəm və etmərəm də..." tipli başaldadıcı fikirləri ilə siyasi fokus-mokus göstərənlər barədə mediada çoxsaylı faktlar üzə çıxdıqca, adam lap məəttəl qalır. Məəttəl qalır ki, yaşı-başı olan kəslər öz vicdanlarına, ləyaqətlərinə bu cür çalın-çarpaz xətləri necə çəkirlər..?!

Dəhşətlisi isə budur ki, dövlət ali məqamları bu kimi fərdlərə etibar edir, onlar isə həmin etibarlardan sui-istifadə etmələri qalsın bir yana, dövlətdən qazandıqlarını çevirirlər, məhz dövlətin üzərinə - "beşinci kolon" olmaqla, xarici ölkələrdəki anti-Azərbaycan xislətli dairələrlə gizlin iş birliklərinə girməklə və daha nələrlə.

**Hətta dövlət strukturlarının media resurslarını öz şəxsi malları kimi istifadə edib, xalq arasında fikir haçalığı yaratmaqla məşğuldurlar**

Ancaq bütün bu reallıqlar ortaya çıxdıqdan sonra belə, hələ də nəyi isə sübut etməyə çalışan "beşinci kolonun" gizli və ya artıq ifşa olunmuş üzvləri müxtəlif vasitələrlə mətbuata çıxaraq "təmiz", "vicdanlı", "əqidəli" olduqlarını zorla ictimai rəyə sırımağa cəhdlər göstərirlər. Hətta vəzifədə olanlar da var ki, çalışdıqları müəyyən dövlət strukturlarının media resurslarını öz şəxsi malları kimi istifadə edib, xalq arasında fikir haçalığı yaratmaqla məşğuldurlar. Üstəlik, haqlı tənqidə, haqlı etiraza, haqlı fikrə dözümsüzlük nümayiş etdirib, utanmadan məhkəməylə-filanla hədələyirlər. Minnət qoyurlar ki, dövlətə və s. xidmət göstəriblər (?!). Məgər dövlətə əlavə təmənna ilə xidmət edirlər, yoxsa minnət qoymaqla? İşləmisiniz, məvacibinizi almısınız, üstəlik, altdan-altdan da doyunca, lap doyunca və ya hələ də doymayınca yeyibsiniz yeyə bildikcə! İndi bu qədərmi gözləriniz tutulub? Belə məsələyə dövləti sevmək adını vermək nə qədər doğrudur axı..?

**Məlum toy qalmaqalı üzə çıxdıqdan sonra "beşinci kolon" məsələsinin aktuallaşması elə-belə, havadan yaranmayıb**

Yaxud, götürək sabiq prokuror, eyni zamanda Azərbaycanın Serbiyada, Bosniyada, Monteneqrodakı keçmiş səfirimiz (ya da kimlərinsə səfiri) Eldar Həsənovu. Bu adam həbs olunduğu günə qədər özünü təpədən-dırnağa qədər "sədaqətli dövlətçi" kimi təqdim edirdi. Amma sonra nə baş verdi? Məlum oldu ki, Avropadakı bütün əxlaqi dəyərlərimizi ayaq altına atan və "söyüş müxalifəti" deyilən qaragürûh sürüsünü yemləyirmiş, onları maliyyələşdiribqısqırdırmış Azərbaycan dövlətinin və hakimiyyətinin üzərinə. Hələ bu da azmış kimi, ermənilərə gizli yollarla satılan silah biznesi barədə də xəbərdar imiş, özü də necə deyərlər, haqqını-əvəzini alıbmış. Qısası, Eldar Həsənov Azərbaycan dövlətinin pulu ilə, məhz Azərbaycanı da hədəfə alıb və bu da azlıq etdiyinə görə, düşmən çörəyinə belə tamah salıb.

Və bu gün məlum toy qalmaqalı üzə çıxdıqdan sonra "beşinci kolon" məsələsinin aktuallaşması elə-belə, havadan yaranmayıb. Dədələrimiz deyib ki, od olmasa, tüstü çıxmaz. İndi od da var, tüstüsü də, özü də elə bir tüstü ki, hələ bir müddət havadan asılı olaraq qalacaq. Bundan sonrası isə, ölkə rəhbərliyimiz tərəfindən inam, etibar və etimad göstərilən, dövlətimizin təhlükəsizliyini mühafizə edən qurumlardır.

**Bax, bunu demək istəyirdim...**

Hə, yeri gəlmişkən, Prezident İlham Əliyev cənabları etdiyi çıxışlarında həyata keçirilən siyasi, iqtisadi və kadr islahatları barədə fikir və mülahizələrini irəli sürərkən bir sıra məmurların özlərini xan, padşah kimi aparmalarını xatırlatdı. Bu xatırlatmadan yəqin ki, bir çoxları öz paylarını götürdü. Amma bununla iş bitməməlidir, əksinə iş davam etməlidir. Məmurlar dərk etməlidirlər ki, qanun aliliyi qarşısında hər kəsin boynu qıldan incədir. Yox, əgər məmur bunu anlamayacaqsa, altdan-altdan dövlət siyasətinə ləkə vurmağa, xəyanət etməyə çalışacaqlarsa, bu zaman onlar da "beşinci kolonun" üzvlərinə çevriləcəklər - xalqı qəsdən hakimiyyətdən, dövlətdən narazı saldıqlarına görə. Fəqət, onu da unutmamalıdırlar ki, artıq hər şey başqa cürdür, hətta dünən gur-gur guruldayanların aqibəti heç də onların istədikləri kimi başa çamır. Bax, bunu demək istəyirdim...

# Ermənistanın təcavüzü nəticəsində mülki əhaliyə vurulan ziyan

***Təkcə münaqişənin qızışdığı 1988-1989-cu illərdə Ermənistan Respublikasının 22 rayonundan 250 min nəfər azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. Həmin köçürülmə illərində erməni cəlladlarının işgəncələrinə məruz qalmış 410 azərbaycanlı, o cümlədən, 57 qadın, 23 uşaq vəhşicəsinə qətlə yetirilmiş, müxtəlif bədən xəsarəti almış, onların yaşayış evləri və əmlakları qarət olunmuşdur. Nəticədə, Ermənistanda azərbaycanlılar yaşayan 9 min kv. km ərazi zəbt olunmuşdur.***

Ermənistanın işğal etdiyi rayonlardan olan əhalinin yaşayış şəraiti pisləşdiyinə görə onları arasında təbii artım kəskin surətdə aşağı düşmüş, uşaq ölümü artmışdır. Bunu sabit il hesab olunan 1989-cu illə 1998-ci ilin müqayisəsi aydın göstərir İşğal olunmuş rayonların hamısında 1989-1998-ci illər arasındakı dövrdə doğum kəskin surətdə aşağı düşmüş, ölüm qismən artmış və təbii artım hər 1000 nəfərə görə həddən çox azalmışdır. Bu azalma (hər 1000 nəfərə görə) rayonların hamısında 11, 2 - 22,6 nəfər arasında olmuşdur. Göstərilən illərdə Cəbrayıl, Qubadlı, Zəngilan və Ağdam rayonları əhalisinin məskunlaşdıqları yeni yerlərdə təbii artım daha çox aşağı düşmüşdür. (16,9 - 22,6 nəfər arasında). İşğal olunmuş rayonların hamısında demoqrafik göstəricilər orta respublika səviyyəsindən aşağı olmuşdur.

İşğal olunmuş rayonlarda əhalinin təbii artımının aşağı düşməsinin başlıca səbəbləri: sosial və iqtisadi şəraitin həddən artıq ağır olması, dağ və dağətəyi zonalarının yaşayış şəraitinin, düzən yerlərdəki isti iqliminə uyğunsuzluğu, düşmələri və s.

Qaçqın və köçkünlərin ən ağrılı problemlərindən biri də onların işlə təmin olunması ilə bağlı çətinliklərdir. Azərbaycan Respublikası Qaçqınlar Komitəsinin verdiyi məlumata görə 1999-cu ildə 301359 nəfər və əmək qabiliyyətli qaçqın və məcburi köçkün olmuşdur, onların 196380 nəfəri yaxud ümumi əmək ehtiyatlarının 65,2%-i işsizdir.

Məcburi köçkünlərin 74 min nəfəri lazımi şəraiti olmayan çadır şəhərciklərində, 99 min nəfəri quraşdırılmış evlərdən ibarət qəsəbələrdə, 17,5 min nəfəri ictimai binalarda, məktəblərdə, uşaq bağçalarında və yataqxanalarda, 20,2 min nəfəri qohum evlərində, qalanları zəbt olunmuş mənzillərdə, yarımçıq qalmış tikililərdə, fermalarda, yük vaqonlarında və sadəcə olaraq, yol kənarlarında məskunlaşmışlar (1999)

Heç bir normal istilik, elektrik enerji təchizatı, sanitar-gigiyena şəraiti olmayan belə qaçqın məskənlərində doğulan uşaqların, onların valideynlərinin sağlamlığı təhlükə altında qalır.

Beləliklə, Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq nəfər qaçqın və köçkün əmələ gəldi, 20 min nəfər həlak oldu, 50 min nəfər əlil oldu, 5,1 min nəfər (1 iyun 1992-ci ilə qədər) əsir və itkin düşdü, işğal olunmuş rayonlarda əhalinin təbii artımı 22 - 26 nəfər arasında (hər 1000 nəfərə) aşağı düşdü.

Hələ Dağlıq Qarabağ münaqişəsindən əvvəl Azərbaycan dövləti dağ rayonlarının, o cümlədən, DQMV məhsuldar qüvvələrinin inkişaf etdirilməsi haqqında qərar qəbul etmişdir. Bununla bağlı olaraq, DQMV və zəbt olunmuş digər rayonların ərazisində tikinti işləri canlandırılmışdır. Burada güclü tikinti təşkilatları yaradılmış və yeni maşın mexanizmləri və nəqliyyat vasitələri gətirilmişdir. Yerlərdə güclü tikinti materialları müəssisələri, o cümlədən, DQMV-də mərmər zavodu tikilmişdir. İşğal nəticəsində yeni tikintilərə gətirilmiş bütün bu maddi-texniki baza məhv edilmiş və nəzərdə tutulan layihələr həyata keçirilməmişdir.

Zəbt olunmuş ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm yer tuturdu. Burada yeyinti, yüngül, tikinti materialları sənaye sahələri üzrə müəssisələr daha çox inkişaf etmişdir.

Göstərilən sahələrin bu regionda inkişafına güclü kənd təsərrüfatı xammal və yerli təbii ehtiyatlar müsbət təsir göstərirdi. Tutulmuş ərazilərin sənaye sahələrindən ən güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təmin olunmasında mühüm əhəmiyyət kəsb edən yağ-pendir, şərabçılıq və qismən də yüngül sənaye sahələri idi. Dağlıq Qarabağ MV-nin sənaye sahələri tərkibi və inkişaf səviyyəsinə görə keçmiş Azərbaycan SSR-nin iqtisadi regionları arasında dördüncü yeri tuturdu. (Abşeron, Gəncə-Qazax, Naxçıvan MR).

İşğal olunmuş rayonların sənaye potensialı əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində cəmlənmişdir. Sayca ən çox sənaye və tikinti müəssisələri (137 müəssisə) bu vilayətin ərazisində yerləşdirilmişdir. İşğal altında olan rayonların bütün sənaye məhsulların 40%-ə qədəri və yaradılmış əsas fondların 18,7 %-i bu vilayətin və sənaye məhsulunun 5%, əsas fondların 41% Füzuli və Ağdam rayonlarının payına düşür. Sənaye və tikinti sahəsində ikinci pilləni Ağdam və Füzuli inzibati rayonları (sənaye məhsulunun 51, əsaslı fondların 41%-i), yerdə qalan 5 inzibati rayonlarda - Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı və Zəngilanda sənaye xeyli zəif inkişaf etmişdir. Azərbaycan SSR-nin 1988-ci ildə ümumi sənaye məhsulunun 2,7 faizi, əsas fondların 3,4 % işğal altında olan rayonların payına düşürdü.

Ayrı-ayrı sənaye məhsullarına görə işğal olunmuş rayonların Azərbaycan SSR-də xüsusi çəkisi belə olmuşdur:

Divar materialları - 11,0%, tikinti əhəngi 7,8%, tikinti materialları - 3,0% ayaqqabı - 11,0 %, ət - 5,0%, konservlər - 6,9 %, inək yağı - 25,2%, şərab materialları - 35%, xam ipək - 13,5%, yun - 19.3, mineral su - 11,5% və i. a.

Həmin rayonlarda İstisu və Turşsu mineral su qablaşdıran müəssisələri, Dağlıq Qarabağ və Ağdamdakı mərmər, mişar daşı zavodları, çoxlu keyfiyyətli və hətta keçmiş SSRİ-də məşhur olan "Ağdam" tipli şərablar və digərlərini istehsal edən şərab zavodları, yağ-pendir müəssisələri, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. fəaliyyət göstərirdi. Bakı müəssisələrinin burada tikilmiş 50-dən çox yeni filialları işğal olunmuş ərazilərdə qalmışdır. Ümumiyyətlə, bu regionda 183-dən çox sənaye və 127 tikinti müəssisələri qalmışdır.

Azərbaycan qızılının kəşf olunmuş və qiymətləndirilmiş ehtiyatlarına görə İran, Türkiyə, Əlcəzair, Böyük Britaniya, Almaniya və s. kimi dövlətlərlə bir sırada durur. Azərbaycan əraziləri ermənilər tərəfindən işğal olunmasaydı, hazırda işğal zonasında qalmış Qızılbulaq, Vecnəli və Söyüdlü (Zod) məxsusi qızıl filizi yataqlarının istismara cəlb olunması respublikada qızılçıxarma sənayesinin infrastrukturunun yaradılmasına, planlı hasilatın aparılmasına imkan verəcək, digər tərəfdən isə sənayenin digər sahələrinin unkişafına yardımçı olacaqdı və respublikanın etibarlı qızıl fondu yaradılacaqdı. İşğal nəticəsində isə nəinki bu gəlirlər əldə olundu, əksinə bu qızıl yataqlarının ehtiyatları ermənilər tərəfindən talan olunub qurtarmaq üzrədir. Məxsusi qızıl yataqlarında dağ-geoloji şəraitin, qızılın yüksək miqdarının, filizlərin asan zənginləşdirilməsi texnologiyasının, eləcə də kapital qoyuluşu və qoyulmuş xərcləri ödəmə müddətinin əlverişli olması da Azərbaycanın itkilərinin çoxluğundan xəbər verir. Civə minerallaşması Böyük və Kiçik Qafqazın bütün metallogenik zonalarında aşkar edilmişdir.

İşğal olunmuş ərazilərdə civənin sənaye əhəmiyyətli ya-taqları Kəlbəcər və laçın rayonlarında müəyyən edilmiş, sənaye ehtiyatları da hesablanmış, bir neçə yataqda da istismar işləri getmişdir.

Bununla belə, ərazidə ehtiyatları təsdiq olunmuş yataqlardan (levçay, Ağyataq, Narzanlı, Çilgəzçay və s.) başqa, tam qiymətləndirilməmiş perspektivli təzahürlər (Ağqaya, İpək, Elyeri və s.) və böyük miqdarda proqnoz resurslara malik qiymətlən-dirilməmiş perspektivli sahələr də mövcuddur167. Göstərilənləri, eləcə də kimya sənayesinin və respublika xalq təsərrüfatının di-gər sahələrinin civəyə olan tələbatının ödənilməsi vacibliyini nəzərə alaraq aşağıdakı işlər kifayət qədər gəlirlərin əldə olun-masına səbəb olacaqdır: - əvvəllər aparılmış işlərlə müsbət qiy-mətləndirilmiş yataqların (Narzanlı, Çizgəlçay və s.) ehtiyat-larının təsdiqi üçün əlavə kəşfiyyat işlərinin aparılması; - civə-nin sənayə əhəmiyyətli yığımlarının aşkar edilməsi üçün pers-pektivli sahələrdə axtarış və axtarış-qiymətləndirmə işlərinin aparılması. Mineral - xammal bazasının işğal olunmuş ayrı-ayrı inzibati rayonlar üzrə təhlili göstərir ki, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində tikinti materiallarının çox böyük ehtiyatları var idi və ərazi üzrə qeyri-bərabər paylanmışdır. Ərazidə aşkar edilmiş yataqların işlənilməsinin texniki-iqtisadi göstəriciləri istismar müəssisələrinin yüksək rentabelliklə fəaliyyət göstərəcəyinəi təsdiq edirdi. Dağ-mədən müəssisələrinin gücünü artırmaqla təkcə üzlük daşı yataqlarının işlənməsindən ildə milyardlarla ABŞ dolları həcmində gəlir əldə edilməsi mümkün idi. Məlumdur ki, üzlük daşı məmulatlarına xarici və daxili bazarda tələbat yüksəkdir. Hələ işğal olunmuş dövrədək kəşfiyyatı aparılmış mişar daşı, eləcə də gil və qum-çınqıl yataqlarının istismara cəlb edilməsi ilə ildə yüz milyonlarla ABŞ dolları gəlirin əldə edilməsi mümkün idi.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz fəaliyyət...http://azerbaijan.az/portal/Karabakh/Arme-nianAgression/armenianAgression-_a.html?armenianAgression_04

Digər tərəfdən, göstərilən yataqların istismara cəlb olunması minlərlə adamın iş yeri ilə təmin olunması demək olacaqdı və bu da Azərbaycanın hərtərəfli iqtisadi inkişafına ermənilər tərəfindən vurulmuş zərərlər deməkdir. Son 23 il ərzində işğal altındakı ərazilərdəki yataqlarda erməni talançılığı baş verdiyindən uzun müddət ərzində və böyük maliyyə sərf etməklə formalaşdırılmış mineral-xammal bazasının vəziyyətini bilmək üçün gələcəkdə işğaldan azad olunduqdan sonra ərazidə xüsusi geoloji-təftiş işlərinin aparılması zəruridir.

Azərbaycan Respublikasının ərazisi mineral suların müxtəlif tipləri ilə zəngindir. Belə ki, geoloji quruluşu və hidrogeoloji formalaşma şəraitindən asılı olaraq kimyəvi və qaz tərkibinin rəngarəngliyi, hərarətin müxtəlifliyi ilə fərqlənən və özündə 1000-dən çox təbii çıxışı ehtiva edən 200-dən artıq mineral su mənbəyi (bulağı) məlumdur. Tərkibində olan ionların miqdarı nisbətinə görə hidrokarbonatlı, hidrokarbonat-xloridli, hidrokarbonat-xlorid-sulfat, hidrokarbonatlı-sulfatlı, xlorid- hidrokarbonatlı, sulfat-xloridli, qaz tərkibinə görə karbonqazlı, hidrogen sulfidli, azotlu, metanlı, hərarətinə görə isə soyuq (20 °C-yə qədər), subtermal (20-37 °C), termal (37-42 °C) və hipotermal (42 °C-dən çox) sular ayrılır və işğal olunmuş ərazidə olan mineral sular tərkibində karbon qazının yüksək olması ilə fərqlənir.

Regionda güclü kommunikasiya xətləri və obyektləri yaradılmışdır. Ümumi uzunluğu 25 min km olan avtomobil və torpaq yolları, ümumi uzunluğu 3984 metr olan 160 ədəd körpü, 14,5 min km uzunluğunda elektrik xətləri, 2500 ədəd transformator, 2,3 min km su kəməri xətləri, 2,0 min km qaz kəməri, ümumi uzunluğu 240 km olan kanalizasiya xətləri, 160 ədəd su tutarları, 34 ədəddən çox qaz paylayıcı qurğuları, 35 min nömrəlik telefon stansiyaları və s. dağıdılmışdır.

Eyni zamanda 4 aeroport, Bakı-Ağdam və Horadiz-Ordubad dəmiryolu xətləri, Bakı-Stepanakert-Naxçıvan qaz kəməri və s. işğal olunmuş ərazilərdə qalmışdır.

Beləliklə, Ermənistanın işğal etdiyi rayonlarda 310-dan çox sənaye və tikinti obyekti qalmışdır bu obyektlər Azərbaycanda istehsal edilən divar materiallarının 11,0 %-ni, ayaqqabı istehsalının 11%-ni, inək yağının 25,2%-ni, şərab materiallarının 35%-ni, xam ipəyin 13,5%-ni, mineral suların 15%-ni və s. verirdilər.

***Vahid Ömərov f.ü.f.d. dos***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

28 avqust

Son səhifə

## “Mançester Siti” Messi üçün 200 milyon avro təklif edir!



İngiltərənin “Mançester Siti” futbol klubu İspaniyanın “Barselona”sının argentinalı hücumçusu Lionel Messi üçün 200 milyon avro ödəməyə hazırdır. SİA-nın “sports.ru” saytına istinadən verdiyi məlumata görə, bu barədə jurnalist Tankred Palmer məlumat verib. İngilis klubu rəsmi təklif hazırlayır. Daha əvvəl Messi “Barselona”dan ayrılmaq istədiyini bildirmişdi. Klub oyunçudan bu barədəd bildiriş aldığını təsdiqləyib. 33 yaşlı Messi “Barselona”nın yetirməsidir və əsas komandada 2004-cü ildə debüt edib. Argentinalı peşəkar karyerasında 700-dən çox qol vurub. Messi “France Football” jurnalına görə altı dəfə ilin ən yaxşı futbolçusuna təqdim olunan “Qızıl top” mükafatına layiq görülüb.

## “Qarabağ”ın Çempionlar Liqasındakı növbəti rəqibi kim olacaq?



Futbol üzrə Azərbaycan çempionu “Qarabağ”ın UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində qarşılaşa biləcəyi potensial rəqiblər müəyyənləşib. SİA xəbər verir ki, Ağdam klubu bu mərhələnin püşkatmasında da səpələnmişlər səbətində yer alacaq. Bu isə o deməkdi ki, Azərbaycan çempionu səpələnməmişlər səbətində yer alan nisbətən zəif rəqiblərdən biri ilə qarşılaşacaq. Bunlar “Molde”, “Midtyulland”, “Ferentsvaroş”, “Omoniya” və Brest “Dinamo”sudur. Qeyd edək ki, ÇL-in 3-cü təsnifat mərhələsinin püşkatması avqustun 31-də keçiriləcək.

## Britaniya Muzeyi öz keçmişini “təmizləyir”



Pan-
demiya dövründə
Parfenonun frizləri, Nereidaların
abidəsi, Rozetta daşı, II Ramzesin büstü və asteklərə məxsus
ikibaşlı ilan 163 gün Britaniya Muzeyinin qapıları arxasında qalıb. Av-
qustun 27-də muzeydə təmizlik işləri ilə məşğul olan 30 nəfərlik heyət
əsrlərlə toz altında qalan həmin xəzinəni ziyarətçilərin ixtiyarına verib.
AZƏRTAC elmundo.es saytına istinadla xəbər verir ki, “Koronavirus
infeksiyası” adı altında təmizlənilən eksponatlardan biri də muzeyin
əsasını qoyan, dünya mədəniyyətinə böyük töhfələr verən Hans Sloa-
nın büstü olub. Eksponat muzeyin maarifləndirmə qalereyasındakı kür-
südən endirilərək qonşu otaqların birinə qoyulub. Araşdırma nəticəsin-
də 1660-cı ildə İrlandiyada anadan olan və Yamaykada şəkər qamışı
sahələrində qul taciri kimi tanınan Hans Sloanın qaranlıq keçmişə ma-
lik olduğu üzə çıxıb. Görünür vaxtilə Bristolda qul taciri Edvard Kolstonun
heykəlinin sökülməsinə səbəb olan ABŞ-dakı “Black Lives Matter” hərəkatı bu də-
fə dünyanın məşhur muzeyini özünün qaranlıq keçmişinə yenidən baxmağa məcbur edib.
“Biz Hans Sloanın büstünü gizlətməmişik, sadəcə onun yerini dəyişmişik. Tarix bəzən ağrılı
olsa da, biz buna hazır olmalıyıq. Yaraları sağaltmaq üçün gərək həqiqəti bilməlisən”, - deyə Bri-
taniya muzeyinin direktoru Hatviq Fişer bildirib.
“Britaniya Muzeyləri” kitabının müəllifi Dan Hiks qeyd edib ki, Hans Sloanın büstünü muzeyin
bir otağından digərinə köçürmək kifayət deyil. Onun fikrincə Britaniya Muzeyinin növbəti qaçılmaz
addımı salonlarında nümayiş etdirdiyi oğurlanmış nadir tapıntıları öz sahibinə qaytarmaqdır. Bun-
lar 1897-ci ildə hazırkı Nigeriyanın cənubundakı Be-
nin Kral sarayında Britaniya qoşunlarının etdiyi qa-
rət nəticəsində əldə olunan 200-dən çox tunc eks-
ponatlardır.

## Bakıya 115 yeni avtobus gətirilir



Prezident İlham Əliyevin vətəndaşlara keyfiyyətli ictimai nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı tapşırığına uyğun olaraq paytaxta 115 ədəd yeni avtobus gətiriləcək. SİA bu barədə Bakı Nəqliyyat Agentliyinə istinadən xəbər verir. Məlumata görə, Türkiyənin BMC şirkətinin istehsalı olan avtobuslar müasir, komfortlu və ekoloji baxımdan təmiz nəqliyyat vasitələridir. Sıxılmış təbii qaz mühərrikli (CNG) avtobusların 80 ədədi 12 metrlik, 35-i isə 9 metrlik avtobuslardır. İlkin olaraq 12 metrlik avtobusların çatdırılmasına başlanılacaq. Yaxın günlərdə başlanılacaq prosesin noyabrın sonunadək yekunlaşdırılması planlaşdırılır.

## “Beyaz Show” ekranlara qayıdır?

Şoumen Beyazıt Öztürk yeniden “Beyaz Show” şou programı ilə ekranlara geri qayıdır. SİA-nın məlumatına görə, uzun müddət “Kanal D” telekanalında yayımlanan layihənin “TV8” də izləyicilərə təqdim olunacağı deyilir. B.Öztürk hələ ki, bu barədə açıqlama verməyib.



## Hollandiyalı rəssamın çəkdiyi əsər yenidən oğurlanıb



Məşhur hollandiyalı rəssam Frans Halsın (1582-1666) çəkdiyi “Pivə bakalı əlində iki gülən oğlan uşağı” rəsmi Lerdam şəhərində yerləşən Xofi van Arden muzeyindən oğurlanıb. AZƏRTAC TASS agentliyinə istinadən xəbər verir ki, oğurluq avqustun 18-dən 19-na keçən gecə baş verib. Oğrular muzeyin arxa qapısını sındıraraq şəkli oğurlayıblar. “Bu xəbər bizi çox kədərləndirdi. Ümid edirik əsər yaxın zamanlarda tapılıb muzeyə qaytarılacaq”, - deyə şəhər meri Sors Froxlix bildirib. Onun sözlərinə görə bu cinayət işinin açılmasına çoxlu polis cəlb olunub.

Qeyd edək ki, əsər artıq üçüncü dəfədir oğurlanır. Bundan öncə rəsm əsəri 1998 və 2011-ci ildə oğurlanmışdır. Birinci dəfə rəsm 3 il, ikinci dəfə isə 6 aydan sonra tapılaraq muzeyə qaytarılmışdır.

## “Kamaz” avtomobili piyadanı vurub



Yevlax rayonunun Aran qəsəbəsi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, avqustun 26-da saat 22 radələrində Yevlax rayonunun Aran qəsəbəsi ərazisində Gəncə şəhər sakini E.Xuduyev idarə etdiyi “KamAZ” markalı avtomobillə yolu keçən qəsəbə sakini Fikrət Sultanovu vurmuş və nəticədə piyada hadisə yerində ölüb. Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600